RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 72 (9527) 7 aprel 2024-cü il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Ersin Tatar Prezident İlham Əliyevə təşəkkürünü bildirib



**Aprelin 6-da Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Ersin Tatar Azərbaycan Milli Məclisində Şimali Kipr Türk Cümhuriyyəti ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun yaradılmasına görə Prezident İlham Əliyevə təşəkkürünü çatdırıb.

Dövlətimizin başçısı parlamentlərarası əlaqələr üzrə işçi qrupunun yaradılmasının xalqlarımız arasında əlaqələrin daha da güclənməsinə töhfə verəcəyini qeyd edib.

***Prezidentin Mətbuat Xidməti***



## Azərbaycan Qərbin məkrini iflasa uğradacaq

### Brüssel görüşünün təşkilatçıları Cənubi Qafqazı fəlakətə sürükləyə bilməyəcəklər

Aprelin 5-də Brüsseldə keçirilən ABŞ-Aİ-Ermənistan üçtərəfli görüşünün, hər nə qədər iştirakçı tərəflər dansalar da, hərbi komponentlər ehtiva etməsi də Cənubi Qafqazla bağlı pərdə arxasında müharibə planlarının cızıldığını ortaya qoyur.

Xatırlatmaq yerinə düşər ki, bu ayın 3-də və 4-də ABŞ Dövlət katibi E.Blinken və Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen Prezident İlham Əliyevə zəng edərək aprelin 5-dəki üçtərəfli görüşün mahiyyəti, məramı, məqsədi barədə hesabat verdilər. Onlar dövlət başçısını əmin etməyə çalışdılar ki, bu görüş Azərbaycana qarşı deyil...

Amma rəsmi açıqlamalardan başqa, 5 aprel görüşü ilə bağlı məxfi komponentlərin olmasının özü də göstərir ki, hadisələr heç də göründüyü və təqdim olunduğu kimi deyil.

Mövlud Çavuşoğlu ilə görüşdə Prezident İlham Əliyev Brüsseldə keçirilən üçtərəfli görüşə toxunaraq, "bununla Cənubi Qafqaz üçün növbəti təhlükə mənbəyi yaradılır" söylədi.

"Halbuki son günlər həm ABŞ-nin, həm də Avropa İttifaqının yüksəkvəzifəli şəxsləri onların təşəbbüsü ilə baş tutan telefon danışıqları əsnasında bizi inandırmağa çalışmışlar ki, bu görüş Azərbaycanın əleyhinə deyil" söyləyən Prezident İlham Əliyev qeyd etdi ki, lakin biz bunun Azərbaycanın və Cənubi Qafqazda işbirliyinin əleyhinə olduğunu bilirik. Bu, ayırıcı xətlərin yaradılması və ölkəmizi təcrid etmək məqsədi güdür.

→ 4

## Azərbaycanın yaratdığı reallığı heç bir qüvvə dəyişə bilməz

Qərbin ikili standartları Bakını təəccübləndirmir: "Prezident də fevralın 14-də andiçmə mərasimində açıq şəkildə bəyan etdi ki, yaratdığımız reallıqlardan sonra bizdən əl çəkməyəcəklər. Eyni zamanda cənab İlham Əliyev dəfələrlə bildirib ki, Azərbaycan proseslərin istənilən inkişaf tendensiyasına hazırdır və heç bir səy Bakının yaratdığı reallığı dəyişə bilməz. Brüssel görüşü də Azərbaycanın formalaşdırdığı yeni hərbi-siyasi konfiqurasiyaya təsir etməyəcək. Proseslərin yekununda zərərçəkən tərəf yalnız və yalnız yenə də əl dəyişməyə çalışaraq özünə yeni hami axtaran Ermənistan və miflərin əsirinə çevrilmiş erməni xalqı olacaq".

→ 4

## Ermənistan dostunu əlcək kimi dəyişməyə adət edib

### Ona görə də ABŞ və Aİ güman etməsinlər ki, ermənilərin timsalında Cənubi Qafqazda özlərinə sadiq tərəfdaş tapıblar

Düzdür, bu gün Ermənistan Rusiyanı qurban verməklə düşdüyü ağır durumdan çıxmağa çalışır. Rusiyanı bu vaxtadək "xristian qardaş" titulunda tac kimi başına qaldıran Ermənistan artıq "romantik qardaşlıq"dan daha çox iqtisadi cəhətdən faydalı münasibətlərə mehrini salır. Bu isə Rusiya ilə Ermənistan arasında münasibətlərin soyuyacağını qaçılmaz edir ki, onun da fəsadlarının ağır olacağı şübhəsizdir.

Amma, deyəsən, rusların köhnə erməni qardaşları bunu özlərinə dərd etmək niyyətində deyillər. Əksinə, ekspertlər belə hesab edirlər ki, Ermənistan ABŞ və Aİ-yə güvənib Rusiyanı Cənubi Qafqazdan çıxarmaq istəməklə regionda dominant qüvvəyə çevrilmək niyyətindədir. Burada ən maraqlısı, daha doğrusu, ən acınacaqlısı əsrlərboyu Rusiyaya sədaqət nümayış etdirən ermənilərin göz qırpımında dəyişərək ruslara dirsək göstərmələridir. Ancaq, əslində, burada nə maraqlı, nə də acınacaqlı bir iş var. Sadəcə, erməni xislətidir. O xislət ki, dostlarını, tərəfdaşlarını əlcək kimi dəyişməyə xidmət edir. Ona görə də inanmırıq ki, ABŞ və Aİ Ermənistanın timsalında Cənubi Qafqazda özlərinə sadiq dost tapıblar.

→ 5

## Qərb Cənubi Qafqazı qarşıdurma məkanına çevirmək istəyir

Azərbaycan açıq bəyan edib ki, Avropa İttifaqı və ABŞ tərəfindən bu kimi fəaliyyətlər açıq şəkildə birtərəfli, qərəzli xarakter daşıyır. Sözügedən görüş də şəffaf şəkildə keçirilmir, regional inklüzivlikdən məhrumdur və regionda təşviq edilən və çox ehtiyac duyulan etimad quruculuğuna və inteqrasiyaya ziddir.

Üçtərəfli görüşlə bağlı Rusiya Xarici İşlər Nazirliyi bəyanat yayıb. Rəsmi Moskva görüşü Qərbin Cənubi Qafqazı geosiyasi qarşıdurmaya sürükləmək üçün növbəti cəhdi kimi qiymətləndirib. Bildirib ki, regiondankənar qüvvələrin Cənubi Qafqazın işlərinə məsuliyyətsiz və dağıdıcı müdaxiləsi, region ölkələri ilə onların qonşuları arasında nifaq salmaq istəyi regionda sabitlik, təhlükəsizlik və iqtisadi inkişaf üçün mənfi nəticələrə, yeni ayırıcı xətlərin yaranmasına, habelə gərginliyin idarəolunmaz hala gəlməsinə səbəb ola bilər. Aydındır ki, Qərb Ermənistanı Cənubi Qafqazda özünün təhlükəli planlarının həyata keçirilməsi üçün alətə çevirmək istəyir.

Aİ-Ermənistan-ABŞ müştərək görüşünün birtərəfli və qərəzli xarakter daşıdığı göz qabağındadır. Ermənistan anlamalıdır ki, Qərbin ikili standartları dünyanın heç bir ölkəsinə sülh gətirməyib. Regionu risk altında qoymağa çalışan bəzi dövlətlərin İrəvanda yaratdığı xoş illüziyalar təhlükəli reallıqla sona çatacaq. İtirən isə yalnız Ermənistan olacaq.

→ 5

## Ermənilər Rusiyanı dost dövlət saymırlar

Ermənistanda Rusiya əleyhinə keçirilən aksiyaların sayının çoxalması, az qala cəmiyyətin bütün təbəqələrində Moskvanın sərt tənqid hədəfinə çevrilməsi anti-Rusiya əhvali-ruhiyyəsinin artmasından xəbər verir. "Past" nəşri yazır ki, "Gallup" təşkilatı tərəfindən aparılan sorğuların nəticələrinə görə, Nikol Paşinyana inam göstəricisinin biabırçı dərəcədə aşağı olması (8 faiz) bir yana, başqa, heç də az maraqlı olmayan rəqəmlər var. Sorğunun nəticələrinə görə, dost ölkələr arasında Fransa 78,1 faizlə birinci, Hindistan 68,5 faizlə ikinci, İran isə 57,8 faizlə üçüncü yerdədir: "Maraqlıdır ki, respondentlərin 29,7 faizi Rusiyanı dost ölkə, 43 faizi isə qeyri-dost ölkə hesab edib. Ekspertlərin fikrincə, total anti-Rusiya kampaniyaları fonunda Rusiyanı dost ölkə hesab edənlərin sayının azala biləcəyi faktı gözlənilən idi, lakin belə aşağı göstəricilər kifayət qədər müəmmalıdır".

→ 3

## Qlobal istiləşmə nəhəng buzlaqlara qarşı



### Mavi planet tədricən yaşıl rəngə boyanır

→ 6

## Brüssel görüşü həm də Azərbaycan-Türkiyə birliyinə qarşı yönəlib

Geosiyasi vəziyyətin dəyişdiyini deyən Prezident İlham Əliyev belə bir şəraitdə Azərbaycan-Türkiyə birliyinin hər zaman olduğu kimi, bu gün də güclü olmasının vacibliyini qeyd edib və bu birliyi pozmaq istəyənlərin arzularının puç olacağına əminliyini bildirib. Bəli, bu gün Brüssel görüşü həm də Azərbaycan-Türkiyə birliyinə qarşı yönəlib, bu baxımdan iki qardaş ölkənin sıx əməkdaşlığına daha çox ehtiyac var. Aprelin 5-də Azərbaycan parlamentində Şimali Kipr Türk Cümhuriyyəti ilə əməkdaşlıq üzrə işçi qrupunun yaradılması təsadüfi deyil, bu, ölkəmizin türk dünyasının birlik və bərabərliyi üçün növbəti dəfə atdığı ən güclü və cəsarətli addımlardan biridir.

→ 4

# Abşeron rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 3-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Abşeron rayonunun inzibati ərazi bölgüsündə aşağıdakı dəyişikliklər edilsin:

1. Rayonun ərazisində yeni salınmış yaşayış məntəqəsi Şəfəq adlandırılsın.

2. Şəfəq yaşayış məntəqəsinə qəsəbə statusu verilsin və həmin qəsəbə Azərbaycan Respublikasının ərazi vahidlərinin Dövlət reyestrinə daxil edilsin.

3. Şəfəq qəsəbəsi mərkəz olmaqla Şəfəq qəsəbə inzibati ərazi dairəsi yaradılsın və Azərbaycan Respublikasının ərazi vahidlərinin Dövlət reyestrinə daxil edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 mart 2024-cü il*

# "Abşeron rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 5 mart tarixli 1107-VIQ nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Abşeron rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 5 mart tarixli 1107-VIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Abşeron Rayon İcra Hakimiyyəti başçısının Şəfəq qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəliyinin fəaliyyətinin Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanının 2-ci hissəsi ilə təsdiq edilmiş "Azərbaycan Respublikası şəhər, rayon və şəhər rayonu icra hakimiyyəti başçısı aparatının, icra hakimiyyəti başçısının inzibati ərazi dairəsi üzrə və sahə inzibati ərazi dairəsi üzrə nümayəndəliklərinin nümunəvi strukturu və ştat vahidlərinin sayı"na uyğun təşkili üçün bir ay müddətində tədbirlər görüb Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.2. "Abşeron rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 5 mart tarixli 1107-VIQ nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 aprel 2024-cü il*

# Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 4, maddə 365 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə"nin 5.4-cü bəndinin birinci cümləsində "üç" sözü "dörd" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 aprel 2024-cü il*

# Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 14 iyul tarixli 1015 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin strukturu"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 14 iyul tarixli 1015 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 7, maddə 657 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin strukturu"nun 2-ci və 4-cü hissələri ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 aprel 2024-cü il*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 202** QƏRAR **Bakı şəhəri, 5 aprel 2024-cü il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 20 fevral tarixli 56 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət icbari şəxsi sığorta ödənişinin verilməsi Qaydası"nda və 2023-cü il 20 fevral tarixli 62 nömrəli Qərarı ilə təsdiq edilmiş "Sığortalıların təqdim etdiyi məlumatlar əsasında sığortaolunanların və sığortalıların sığortaçıda uçotu, habelə sığortalılar tərəfindən dövlət icbari şəxsi sığorta haqlarının hesablanması, sığortaçıya ödənilməsi, ödənilməsinə nəzarət və artıq ödənilmiş dövlət icbari şəxsi sığorta haqlarının qaytarılması Qaydası"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli 634 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 13 dekabr tarixli 2378 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 20 fevral tarixli 56 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 2, maddə 319 (Cild I) ilə təsdiq edilmiş "Dövlət icbari şəxsi sığorta ödənişinin verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.1.3-cü yarımbənddə "və" sözü vergül işarəsi ilə əvəz olunsun və həmin yarımbəndə "Təhlükəsizliyi" sözündən sonra "Xidməti və Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik" sözləri əlavə edilsin;

1.2. 3.1-ci və 3.2-ci bəndlərdə birinci halda "və" sözü vergül işarəsi ilə əvəz olunsun və həmin bəndlərə "Təhlükəsizliyi Xidməti" sözlərindən sonra "və Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti" sözləri əlavə edilsin;

1.3. 4.7-ci bəndin birinci cümləsində birinci halda "və" sözü vergül işarəsi ilə əvəz olunsun və həmin bəndə "Təhlükəsizliyi" sözündən sonra "Xidməti və Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 20 fevral tarixli 62 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 2, maddə 325 (Cild I) ilə təsdiq edilmiş "Sığortalıların təqdim etdiyi məlumatlar əsasında sığortaolunanların və sığortalıların sığortaçıda uçotu, habelə sığortalılar tərəfindən dövlət icbari şəxsi sığorta haqlarının hesablanması, sığortaçıya ödənilməsi, ödənilməsinə nəzarət və artıq ödənilmiş dövlət icbari şəxsi sığorta haqlarının qaytarılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.2.1-ci yarımbənddə "və" sözü vergül işarəsi ilə əvəz olunsun və həmin yarımbəndə "Təhlükəsizliyi Xidmətinin" sözlərindən sonra "və Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin" sözləri əlavə edilsin;

2.2. 9.3-cü bəndə "Kəşfiyyat Xidməti" sözlərindən sonra ", Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti" sözləri əlavə edilsin.

3. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:

3.1. Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin müraciətinə əsasən barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan hər bir sığortaolunana tabeliyindəki Dövlət Sosial Müdafiə Fondu tərəfindən bu Qərarın qüvvəyə mindiyi tarixdən 1 (bir) ay müddətində unikal kodun verilməsini təmin etsin;

3.2. bu Qərardan irəli gələn digər məsələləri həll etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 203** QƏRAR **Bakı şəhəri, 5 aprel 2024-cü il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 21 noyabr tarixli 416 nömrəli Qərarı ilə təsdiq edilmiş "Geoloji Kəşfiyyat Agentliyi" publik hüquqi şəxsin Nizamnaməsi"ndə və 2022-ci il 29 noyabr tarixli 425 nömrəli Qərarı ilə təsdiq edilmiş "Geodeziya və Kartoqrafiya Agentliyi" publik hüquqi şəxsin Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 21 noyabr tarixli 416 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 11, maddə 1353 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 5 mart tarixli 116 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Geoloji Kəşfiyyat Agentliyi" publik hüquqi şəxsin Nizamnaməsi"nin 5.5-ci bəndinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Agentliyin sərəncamında qalan vəsaitdən Nazirliyin əməkdaşlarının vəzifə maaşlarına əlavə və mükafatların verilməsi üçün ayırmalar nəzərdə tutulur.".

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 29 noyabr tarixli 425 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 11, maddə 1361 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 5 mart tarixli 116 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Geodeziya və Kartoqrafiya Agentliyi" publik hüquqi şəxsin Nizamnaməsi"nin 5.4-cü bəndinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Agentliyin sərəncamında qalan vəsaitdən Nazirliyin əməkdaşlarının vəzifə maaşlarına əlavə və mükafatların verilməsi üçün ayırmalar nəzərdə tutulur.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Türkiyənin vitse-prezidenti Milli Məclisin ŞKTC ilə bağlı qərarını alqışlayıb

**Türkiyənin vitse-prezidenti Cövdət Yılmaz Azərbaycan Respublikası Milli Məclisinin Şimali Kipr Türk Cümhuriyyəti (ŞKTC) ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun yaradılması haqqında qərarını alqışlayıb.**

AZƏRTAC xəbər verir ki, C.Yılmaz Lefkoşada jurnalistlərlə söhbətində işçi qrupunun fəaliyyətinin ŞKTC və Azərbaycanın rifahına xidmət edəcəyinə ümidvar olduğunu bildirib.



"Bu gün mən bu xoş xəbəri bölüşmək istəyirəm: Azərbaycan ilə ŞKTC arasında parlamentlərarası əlaqələr üzrə işçi qrupu yaradılıb. Ümid edirik ki, onun fəaliyyəti iki qardaş dövlətin maraqlarına töhfə verəcək. Bu gün artıq belə deyirik: "Bir millət, üç dövlət", - deyə C.Yılmaz vurğulayıb.

Ankaranın ŞKTC-nin maraqlarını dəstəkləmək kursunun dəyişməzliyini vurğulayan Türkiyənin vitse-prezidenti qeyd edib ki, Lefkoşa ilə ikitərəfli əlaqələrin inkişafı məsələsində müsbət addımlar Türk Dövlətləri Təşkilatı müstəvisində, o cümlədən Azərbaycan tərəfindən də qeydə alınır. Siyasətçi habelə ŞKTC ilə beynəlxalq əlaqələrin inkişafı üçün yeni addımlar atmağa çağırıb.

# Şəhid ailələri və qazilər üçün iftar məclisi təşkil edilib





**Aprelin 5-də Bakının Nərimanov rayonunda şəhid ailələri və qazilər üçün iftar məclisi təşkil olunub.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Bakıdan, ayrı-ayrı şəhər və rayonlarımızdan təşrif buyurmuş şəhid ailələrinin, qazilərin, millət vəkillərinin, ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə öncə şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib, daha sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan Milli Məclisin Sədr müavini, parlamentin Gənclər və idman komitəsinin sədri Adil Əliyev şəhid ailələrini, qaziləri və bütün tədbir iştirakçılarını qarşıdan gələn müqəddəs Ramazan bayramı münasibətilə səmimi-qəlbdən təbrik edərək, bu bayramı ilk dəfə ərazi bütövlüyü və suverenliyi bərqərar olunmuş ölkə kimi qürurla qeyd etdiyimizi bildirib. O diqqətə çatdırıb ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və qəhrəman ordumuzun şücaəti sayəsində ölkəmiz Zəfər qazanaraq tarixi ədaləti bərpa edib. Fədakar Vətən övladlarının əziz xatirəsi qəlbimizdə əbədi yaşayacaq.

Adil Əliyev vurğulayıb ki, Prezident İlham Əliyevin və Birinci xanım Mehriban Əliyevanın şəhid ailələrinə, qazilərə yüksək diqqət və qayğısı, həssas münasibəti bizim hər birimiz üçün örnəkdir.

Azərbaycan Şəhər Bələdiyyələrinin Milli Assosiasiyasının və Nərimanov rayon bələdiyyəsinin sədri Təmraz Tağıyev iftar süfrəsini könül süfrəsi adlandırıb və ürək sözlərini bölüşüb.

Tədbirdə şəhid ailələrinin, qazilərin ürək sözləri dinlənildikdən sonra müqəddəs "Qurani-Kərim"dən ayələr oxunub, Ramazan ayının fəzilətləri barədə söhbət açılıb, xalqımızın və dövlətimizin firavanlığı, əmin-amanlığı, Azərbaycanın dövlət müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən qəhrəman vətən övladlarının ruhuna dualar edilib.

***"Azərbaycan"***

# Tütün məmulatları və alkoqollu içkilərin idxalı və istehsalı ilə bağlı qanunvericilik təkmilləşdirilir



**Aprelin 5-də keçirilən Milli Məclisin Aqrar siyasət komitəsinin iclasında 3 məsələ müzakirə edilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, hər 3 qanun layihəsinin ölkə Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə daxil olduğunu diqqətə çatdıran komitənin sədri Tahir Rzayev qeyd edib ki, "Tütün və tütün məmulatı haqqında", "Qida təhlükəsizliyi haqqında" və "Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, "Dövlət rüsumu haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanun layihələri birinci oxunuşda komitənin müzakirəsinə təqdim olunurlar.

Təklif olunan dəyişikliklər barədə ətraflı məlumat verən Tahir Rzayev diqqətə çatdırıb ki, dəyişikliklər qeyd olunan sahələrdə məqsədyönlü islahatların tərkib hissəsi olmaqla yanaşı, əhalinin sağlamlığının müdafiəsinin təmin edilməsinə, sanitar-gigiyena normalarına riayət olunmasına, sahibkarlıq subyektlərinin maraqlarının müdafiəsinə, istehsalın və dövriyyənin tənzimlənməsinə, vergidən yayınma hallarının və qeyri-qanuni istehsalın qarşısının alınmasına, mövcud sahədə rəqabətə dözümlü investisiya mühitinin formalaşmasına, istehsal olunmuş məhsulların ixrac potensialının artırılmasına və yerli xammaldan istifadə perspektivlərinin yaranmasına zəmin yaradacaq. Qeyd olunub ki, tütün məmulatının idxalı və istehsalı fəaliyyətini həyata keçirən sahibkarlıq subyektlərinin reyestrindən çıxarışın "Sahibkarlıq fəaliyyətinə verilən icazələrin siyahısı"na əlavə edilməsini nəzərdə tutan dəyişiklik bu sahədə daha operativ və səmərəli fəaliyyətin həyata keçirilməsinə şərait yaradacaqdır.

Sonra Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəis müavini Samirə Musayeva hər 3 məsələ barədə ətraflı məlumat verib. O, tütün məmulatlarının və alkoqollu içkilərin yerli istehsalının rəqabət qabiliyyətinin artırılması və ixracının genişləndirilməsi, tütün məmulatlarının və alkoqollu içkilərin idxalı və istehsalı ilə əlaqədar şəffaf iqtisadi fəaliyyətin təşkili məqsədilə Azərbaycan Respublikasının Prezidenti "Tütün məmulatlarının və alkoqollu içkilərin idxalı və istehsalı sahəsində dövlət nəzarətinin gücləndirilməsi haqqında" 2023-cü il 7 fevral tarixli Sərəncamından irəli gələn məsələləri diqqətə çatdırıb. Qeyd olunub ki, təklif olunan dəyişikliklər tütün məmulatlarının istehsalının və idxalının həyata keçirilməsi fəaliyyətinə görə icazə sisteminin tətbiqi və alkoqollu içkilərin idxalı və istehsalı ilə bağlı icazə sisteminin təkmilləşdirilməsi, ölkə daxilində tütün məmulatlarının istehsalında yerli xammaldan istifadə həcmlərinə dair tələblərin müəyyən edilməsi, habelə sahibkarlıq subyektlərinin maraqlarının müdafiəsini, istehsalın və dövriyyənin tənzimlənməsini, vergidən yayınma hallarının və qeyri-qanuni istehsalın qarşısının alınmasını və bir sıra digər məsələlərin həllini nəzərdə tutur.

Müzakirələr zamanı komitənin sədr müavini Sabir Hacıyev, üzvləri Novruzəli Aslanov, Cavanşir Paşazadə, Aydın Hüseynov, İqbal Məmmədov, Emin Hacıyev, Müşfiq Cəfərov gündəlikdə duran məsələlər barədə fikirlərini açıqlayıblar, təqdim edilən qanun layihələrinin vacibliyini söyləyiblər.

Tədbirdə iştirak edən İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəis müavini Samirə Musayeva, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Aksizli və Markalanmalı Malların Dövriyyəsinə Nəzarət Baş İdarəsinin rəisi Azər Süleymanov və Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Hüquq, kadr və icraya nəzarət şöbəsinin müdiri Elşad Cəbrayılov deputatların səsləndirdiyi bir sıra qeyd və təkliflərə aydınlıq gətiriblər.

Müzakirəyə çıxarılan qanun layihələrinin hamısı birinci oxunuşda baxılması üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***"Azərbaycan"***

# YAP-ın nümayəndələri "Yedinaya Rossiya" Partiyasının təşkil etdiyi beynəlxalq tədbirdə iştirak ediblər

*Yeni Azərbaycan Partiyası (YAP) İdarə Heyətinin və Milli Məclisin Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Mixail Zabelin və Azər Badamov "Yedinaya Rossiya" Partiyasının təşkilatçılığı ilə ölkənin Kalininqrad şəhərində "XXI əsrdə həqiqi sülhün və etibarlı təhlükəsizliyin təmin edilməsi üçün müxtəlif siyasi sistemlərə malik dövlətlərin dinc yanaşı yaşaması prinsiplərinin əhəmiyyəti haqqında" mövzusunda keçirilən "dəyirmi masa"da iştirak ediblər.*





YAP-dan AZƏRTAC-a bildirilib ki, görkəmli mütəfəkkir İmmanuel Kantın anadan olmasının 300 illik yubileyinə həsr edilən və 12 ölkədən ictimai-siyasi xadimlərin qatıldıqları tədbiri giriş sözü ilə açan "Yedinaya Rossiya" Partiyası Ali Şurası Bürosunun və Rusiya Federal Məclisinin Federasiya Şurasının üzvü Andrey Klimov onun siyasi fəlsəfəsinin günümüz üçün əhəmiyyətindən bəhs edib. O, mütəfəkkirin öz əsərlərində irəli sürdüyü müxtəlif siyasi sistemlərə malik dövlətlərin dinc yanaşı yaşaması ideyasının dövlətlərin suverenliyi və bir-birinin daxili işlərinə qarışmamaq prinsiplərinə əsaslanmaqla XXI əsrdə də aktuallıq kəsb etdiyini bildirib.

YAP İdarə Heyətinin üzvü Mixail Zabelin çıxışında bildirib ki, yeni dünya nizamı müxtəlif siyasi, sosial quruluşlara malik dövlətlərin suveren bərabərhüquqluluğu və dinc yanaşı mövcudluğu prinsiplərinə əsaslanmalıdır. Onun sözlərinə görə, xalqların əsrlərdən bəri formalaşmış ənənələrinin, milli dəyərlərinin və sosial strukturunun təhlükə qarşısında qoyulması, etnik, dini, siyasi müstəvilərdə nəzərəçarpan ayırıcı xətlər dövlətlərin sabitliyinə mənfi təsir göstərir. M.Zabelin Bakıda bu ilin martında Azərbaycanda keçirilən "Müxtəlifliyin qorunması: 2024-cü ildə islamofobiya ilə mübarizə" mövzusunda beynəlxalq konfransın və "Parçalanmış dünyanın bərpası" mövzusunda XI Qlobal Bakı Forumunun əhəmiyyətini vurğulayıb. O, dünya miqyasında nüfuzlu ictimai-siyasi xadimlərin, ekspertlərin iştirakı ilə qlobal xarakterli məsələlərin müzakirə edildiyi belə tədbirlərin Azərbaycana olan etimaddan xəbər verdiyini söyləyib.

M.Zabelin deyib ki, ərazi bütövlüyünü təmin edən Azərbaycan yeni reallıqlar yaradıb və hazırda regionda sülhün təmin olunmasına çox yaxınıq. Lakin bu vəziyyət Fransa da daxil olmaqla Qərbdə bəzi dairələri narahat edir və onlar Ermənistana təsir göstərərək sülhün bərqərar edilməsinə mane olmağa çalışırlar.

Deputat həmçinin qeyd edib ki, multikulturalizm və tolerantlıq ənənələrinin dərin kök saldığı Azərbaycanda müxtəlif dini, etnik mənsubiyyətə malik insanların dinc birgəyaşayışı dövlət siyasətinin prioritetlərindəndir.

YAP İdarə Heyətinin üzvü Azər Badamov diqqətə çatdırıb ki, bu gün beynəlxalq hüquqa hörmət edilmir, qlobal qütbləşmə prosesi sürətlənir, suveren dövlətlərin daxili işlərinə müdaxilə adi hala çevrilib. Onun sözlərinə görə, Azərbaycan da belə ikili standartlarla üzləşib, torpaqlarımız 30 ilə yaxın müddətdə işğal altında olarkən beynəlxalq hüquqa məhəl qoyulmayıb, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi kağız üzərində qalıb. Lakin ölkəmiz öz gücü ilə tarixi ədalətin bərpasına nail olub və məlum qətnamələrin icrasını təmin edib.

A.Badamov bildirib ki, Azərbaycanın öz torpaqlarını işğaldan azad edərək bütün ərazilərində suverenliyini tam bərpa etməsi ilə barışmaq istəməyən bəzi Qərb dövlətləri, o cümlədən Fransa ölkəmizə təzyiqlər göstərməyə çalışır.

Tədbir iştirakçıları İ.Kantın məzarını ziyarət edib, Kalininqrad şəhərinin müxtəlif tarixi abidələri və mədəni obyektləri ilə tanış olublar.

# *XİN:* "Ermənistan sülh prosesinə ciddi yanaşdığını sübut etmək üçün təxribatçı addımlardan çəkinməlidir"

*Ermənistan tərəfinin son bir neçə gün ərzində Silahlı Qüvvələrimizin bölmələrinə qarşı müntəzəm şəkildə törətdiyi hərbi təxribatlardan, müxtəlif istiqamətlərdə hərbi qüvvələr cəmləşdirmək kimi addımlarından fikir yayındırmaq məqsədilə Ermənistan Xarici İşlər Nazirliyinin ölkəmizi məqsədyönlü şəkildə vəziyyəti gərginləşdirməkdə təqsirləndirməsi qəbuledilməzdir və onların bu iddialarının heç bir əsası yoxdur.*

AZƏRTAC xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyinin (XİN) mətbuat katibi Ayxan Hacızadənin Ermənistan Xarici İşlər Nazirliyinin son hərbi təxribatlar ilə bağlı bəyanatına dair şərhində bildirilib.

Mətbuat katibi qeyd edib: "Azərbaycanla sərhədyanı bölgələrdə Ermənistan tərəfindən hərbi istehkamlar qurulmasının hərbi islahatlar ilə əlaqələndirilməsinə bununla yanaşı, Ermənistan tərəfindən kütləvi silahlanma siyasətinin onların suveren hüququ olması barədə fikirlərə gəldikdə, məhz nəyə görə Ermənistan tərəfindən bu addımların atılmasının qeyri-legitim olduğu və ölkəmizə qarşı təhlükə yaratdığı hər kəsə aydın olmalıdır. Belə ki, Ermənistan Konstitusiyasında, habelə bir sıra qanunvericilik aktlarında Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı davam edən iddialar, revanşizm cəhdlərinin mövcudluğu ölkəmizə qarşı Ermənistandan irəli gələn təhdidlərin miqyasını nümayiş etdirir. Bundan əlavə, Ermənistanda hərbi imkan olan zaman, bu ölkənin Azərbaycanın suveren ərazilərini 30 il ərzində işğal etdiyi nəzərə alınaraq, Ermənistana əlavə hərbi güc qazandırmaq səylərinin onların yeni gərginlik və təhdid mənbəyinə çevrilməsinə şərait yaradacağı şübhə doğurmamalıdır".

A.Hacızadə vurğulayıb ki, Ermənistandan fərqli olaraq, Azərbaycan tam hərbi üstünlüyü ilə suveren ərazilərini beynəlxalq hüquqa uyğun şəkildə işğaldan azad etdi və Ermənistanın ərazilərinə qarşı təhdid törətmədi. Qeyd edilən çağırışlar fonunda, müxtəlif bəhanələr gətirməklə Ermənistanın aqressiv silahlanması təhdid mənbəyidir və Ermənistana bu təhlükəli yoldan çəkinməyə çağırış edilməsi zəruridir.

"30 il ərzində məhz tərəf olduğu beynəlxalq müqavilələr və silahlara nəzarət mexanizmləri çərçivəsində öhdəliklərini kobud şəkildə pozan, ərazilərimizin işğalı müddətində əksər hərbi texnikasını və silah sistemlərini ölkəmizin ərazisində qeyri-qanuni yerləşdirməklə onları beynəlxalq silahlara nəzarət mexanizmlərindən gizlədən, bu gün dəfələrlə istinad etdiyi Alma-Ata Bəyannaməsinə zidd olaraq Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə hörmət etməyən Ermənistan tərəfinin indi silahlara nəzarət və hücum etməmək paktı kimi qeyri-ciddi fikirlər səsləndirməsi siyasi manipulyasiyadır. Ermənistan sülh prosesinə ciddi yanaşdığını sübut etmək üçün ziddiyyətli bəyanatlar və təxribatçı addımlardan çəkinməli, beynəlxalq hüququn norma və prinsiplərinə hörmət bəsləməlidir. Azərbaycan öz növbəsində bölgədə ona qarşı təhdidlərin qarşısını ciddi şəkildə alacaq, sülh və quruculuq səylərini davam etdirəcək", - deyə mətbuat katibi vurğulayıb.

# Azərbaycan səfiri Fransa televiziyasında ölkəmizlə bağlı reallıqlardan danışıb

*Azərbaycanın Fransadakı səfiri Leyla Abdullayeva bu ölkənin "Openboxtv" telekanalında Fransa Xarici Təhlükəsizlik Baş İdarəsinin sabiq kəşfiyyat direktoru, Baş nazirin iqtisadi intellekt üzrə sabiq məsul rəhbəri Alən Juiyenin (Alain Juillet) qonağı olub.*




AZƏRTAC xəbər verir ki, verilişdə Azərbaycanın demokratik, dünyəvi və multikultural ölkə olmasından, keçmiş Qarabağ münaqişəsindən, BMT qətnamələrindən, Zəngəzur nəqliyyat dəhlizindən, ölkəmizin Ukrayna ilə bağlı mövqeyindən, COP29-a evsahibliyi etməsindən danışılıb.

Səfir ilk növbədə Fransada Azərbaycanla bağlı məlumatsızlığı qeyd edərək, yerli mətbuatda ölkəmizlə bağlı yanlış informasiyaların yayılmasından təəssüfünü bildirib. O, Azərbaycanla bağlı yazılanların reallığı əks etdirmədiyini deyib.

Azərbaycanın tarixi haqqında məlumat verən diplomat onun Şərqlə Qərb arasında yerləşdiyini, Şərqdə ilk demokratik respublika olduğunu, qadınlara hələ 1919-cu ildə seçib-seçilmək hüququ verildiyini bildirib.

Azərbaycanın müstəqilliyinin bərpasının ilk illərində müharibə ilə üzləşdiyini xatırladan L.Abdullayeva diqqətə çatdırıb ki, üzləşdiyi çətinliklərə baxmayaraq, ölkəmiz demokratiya yolunu seçib, bir çox regional və beynəlxalq təşkilatların üzvü olub. Qeyd olunub ki, Azərbaycanda çox sayda etnik qruplar yaşayır. Azərbaycan multikultural modeli bütün ölkələrə nümunədir.

Məlumat verilib ki, ölkəmizin ərazisinin 20 faizinin işğalı nəticəsində bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün düşüb. BMT Təhlükəsizlik Şurasının erməni silahlı birləşmələrinin Azərbaycan ərazilərini dərhal və qeyd-şərtsiz tərk etməsinə dair 4 qətnaməsinə və ölkəmizin münaqişəni sülh yolu ilə həll etmək istəməsinə baxmayaraq, Bakı sonda torpaqlarını hərbi yolla azad etməyə məcbur olub. Bu gün Azərbaycanın irəli sürdüyü sülh müqaviləsinin imzalanması üçün iki ölkə danışıqları davam etdirir.

Verilişdə Azərbaycanı 33 ildir blokadada qalan Naxçıvan Muxtar Respublikası ilə birləşməli olan Zəngəzur dəhlizindən söz açılıb. Bu layihənin bütün regionun, o cümlədən Ermənistanın inkişafına xidmət edəcəyi vurğulanıb. Eyni zamanda bu gün Fransa mediasında bu dəhlizlə bağlı yanlış məlumatların yayımlandığı qeyd edilib.

L.Abdullayeva bildirib ki, regionda davamlı sülhün bərqərar olması məqsədilə Azərbaycanın irəli sürdüyü sülh müqaviləsi beynəlxalq hüququn bütün norma və prinsiplərinə uyğundur, iki ölkənin ərazi bütövlüyü və suverenliyinə riayət olunmasını əks etdirir. Hazırda iki ölkə arasında delimitasiya və demarkasiya prosesinə hazırlıq işləri aparılır.

Ölkəmizin Ukrayna ilə bağlı mövqeyinə dair sualı cavablandıran səfir deyib ki, Azərbaycan Ukraynaya humanitar yardım göndərən ilk ölkələrdən biridir. Azərbaycan Ukraynanın ərazi bütövlüyünü tanıyır.

Verilişdə Azərbaycanın zəngin karbohidrogen ehtiyatlarına malik olduğu xatırladılıb, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində böyük rol oynadığı vurğulanıb. Həmçinin ölkəmizin həyata keçirdiyi nəhəng regional layihələrdən söz açılıb.

Diqqətə çatdırılıb ki, enerji resursları ilə zəngin olmasına və dünyada bu resursların ixracatçısı kimi tanınmasına baxmayaraq, Azərbaycan "yaşıl keçid"ə, bərpaolunan enerjiyə üstünlük verir. Azərbaycan enerji sahəsində Avropa İttifaqının strateji tərəfdaşıdır və qitənin artıq iki ölkəsinə - Macarıstan və Rumıniyaya "yaşıl enerji" ixrac etməklə bağlı müqavilə imzalanıb.

Qeyd edilib ki, Azərbaycanın evsahibliyi edəcəyi COP29-a gələn qonaqlar qədim Bakının ən gözəl şəhərlərdən biri olmasına şahidlik edəcəklər.

Diplomat Fransanın Ermənistanı silahlandırmaq, Almaniyanın isə danışıqlar prosesində vasitəçi olmaq mövqeyi tutduğunu bildirərək Prezident E.Makronun İrəvanla bağlı mövqeyinə görə iki ölkə arasında vəziyyətin hazırkı səviyyəyə çatdığını qeyd edib.

# Baş prokuror Neftçala rayonunda vətəndaşları qəbul edib

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.*



Aprelin 6-da baş prokuror Kamran Əliyev Neftçala Rayon Prokurorluğunun inzibati binasında Neftçala, Hacıqabul, Salyan rayon, Şirvan şəhər və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 29 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Qəbuldan sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb, eləcə də prokurorluq orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən "Elektron prokurorluq" informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olaraq işin daha da təkmilləşdirilməsi və səmərəliliyin artırılmasına dair təklifləri dinləyib.

# MEDİA-nın dəstəyi ilə COP29 silsilə mühazirələrinə başlanılıb

Azərbaycanın evsahibliyi edəcəyi COP29-la bağlı maarifləndirmə və təbliğat işləri davam etdirilir. Medianın İnkişafı Agentliyinin dəstəyi ilə "Ədibin Evi" Ədəbiyyata Dəstək Fondu "COP29 silsilə mühazirələri"nə başlayır.

Agentlikdən AZƏRTAC-a bildiriblər ki, mühazirələrin keçirilməsində əsas məqsəd bu il ölkəmizdə baş tutacaq BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası ərəfəsində ətraf mühitin və ekoloji tarazlığın mühafizəsi ilə bağlı ictimai savadlılığı artırmaqdır. Videoformatda keçirilən mühazirələr zamanı ətraf mühitə yanaşmanın Azərbaycan milli mədəni kimliyində tutduğu yer müxtəlif baxış bucaqlarından təhlil ediləcək.

İlk mühazirəni oxuyan şərqşünas alim, "Qurani Kərim"in Azərbaycan dilinə bədii tərcüməsinin müəllifi, ADA Universitetinin professoru Nəriman Qasımoğlu "İslam dini ətraf mühitin mühafizəsi ilə bağlı bizə nə buyurur?" mövzusunda çıxış edib. O bildirib ki, fərqli dinlərin ekologiya məsələlərində irəli sürdüyü etiqadi mətnlərdə ümumi yanaşma izlənilir. "Qurani Kərim"in ayələrinə istinad edən professor təbii nemətlərdən yalnız ən zəruri ehtiyacların ödənilməsi üçün qədərində istifadə edilməsinin əhəmiyyətini vurğulayıb. Mühazirəçi israfçılığa yol verməməyin, təbii resurslardan səmərəli istifadənin əhəmiyyəti, insanın ətraf mühitə münasibəti və təsiri ilə bağlı müxtəlif mövzulara aydınlıq gətirib.

Qeyd edək ki, COP29-la bağlı mühazirələr silsilə xarakter daşıyacaq.

# *Ombudsman:* "Xocalıda məzarlıqdan tapılmış qalıqlar Ermənistanın törətdiyi müharibə cinayətlərini növbəti dəfə sübut edir"

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Ermənistan tərəfindən insanlıq əleyhinə törədilmiş cinayətlərlə bağlı növbəti faktların ortaya çıxması məsələsinə münasibət bildirib.



Bu barədə AZƏRTAC-a Ombudsman Aparatından məlumat verilib.

Məlumatda bildirilib ki, 1992-ci ilin fevral ayında Ermənistan silahlı qüvvələri tərəfindən törədilmiş Xocalı soyqırımı zamanı itkin düşmüş, yaxın günlərdə şəxsiyyəti müəyyənləşmiş iki nəfər - Bəsirə Məhərrəmova və Vaqif Məhərrəmov bu gün dəfn ediliblər. "Ayrı-seçkiliyin, etnik təmizləmənin qurbanı olmuş bir ailənin üzvlərinin qalıqları 32 il sonra Xocalı rayonu ərazisində aşkarlanmış məzarlıqdan tapılıb.

Bu fakt Ermənistanın törətdiyi müharibə cinayətlərini, habelə beynəlxalq humanitar hüquq normalarını pozduğunu növbəti dəfə sübut edir.

Bir daha xatırladırıq ki, beynəlxalq hüququn normalarını kobudcasına pozan Ermənistan tərəfi 30 ilə yaxın müddət ərzində 4000-ə yaxın azərbaycanlı itkinin ailəsini məlumat almaq hüququndan məhrum edib, eyni zamanda bu günədək kütləvi dəfn yerləri barədə məlumatları Azərbaycana təqdim etməkdən yayınıb", - deyə açıqlamada qeyd olunub.

# Ermənilər Rusiyanı dost dövlət saymırlar

*Son bir ayda cərəyan edən siyasi proseslər fonunda baş nazir Nikol Paşinyanın hərəkətləri Moskvanı təəccübləndirir və qıcıqlandırır. Yəni sonuncu Brüssel görüşü bir daha nümayiş etdirdi ki, Hayastan iqtidarı bütün istiqamətlərdə Rusiyanın maraqlarına uyğun gəlməyən addımlar atmağa davam edəcək.*

Buna paralel olaraq daha çox narahatlıq doğuranı anti-Rusiya əhvali-ruhiyyəli kadrlara yüksək vəzifələrin verilməsi və ölkədə Rusiyanın dayaqlarının laxladılmasıdır. Hər iki məqamla bağlı Rusiya tərəfi bir neçə dəfə mövqeyini bildirib. Buna baxmayaraq, N.Paşinyan Kremlə tərs gələn siyasətini davam etdirməkdədir.

Ermənistanda Rusiya əleyhinə keçirilən aksiyaların sayının çoxalması, az qala cəmiyyətin bütün təbəqələrində Moskvanın sərt tənqid hədəfinə çevrilməsi anti-Rusiya əhvali-ruhiyyəsinin artmasından xəbər verir. "Past" nəşri yazır ki, "Gallup" təşkilatı tərəfindən aparılan sorğuların nəticələrinə görə, Nikol Paşinyana inam göstəricisinin biabırçı dərəcədə aşağı olması (8 faiz) bir yana, başqa, heç də az maraqlı olmayan rəqəmlər var. Sorğunun nəticələrinə görə, dost ölkələr arasında Fransa 78,1 faizlə birinci, Hindistan 68,5 faizlə ikinci, İran isə 57,8 faizlə üçüncü yerdədir: "Maraqlıdır ki, respondentlərin 29,7 faizi Rusiyanı dost ölkə, 43 faizi isə qeyri-dost ölkə hesab edib. Ekspertlərin fikrincə, total anti-Rusiya kampaniyaları fonunda Rusiyanı dost ölkə hesab edənlərin sayının azala biləcəyi faktı gözlənilən idi, lakin belə aşağı göstəricilər kifayət qədər müəmmalıdır".

Bu arada keçmiş müdafiə naziri Arşak Karapetyanın başçılıq etdiyi Ümumermənı Cəbhəsi Partiyasının təsis qurultayı keçirilib. A.Karapetyan qurultayda çıxış edərək "Güclü Ermənistan quracağıq" deyib. Məlumata görə, keçmiş müdafiə naziri sədr, Ovanes Şaqinyan isə siyasi təşkilatın baş katibi vəzifəsinə seçilib.

Qeyd edək ki, A.Karapetyan 2016-cı il Aprel döyüşlərində göstərdiyi biabırçı fəaliyyəti ilə yadda qalıb. O, döyüşlərdən bir neçə gün sonra ovaxtkı prezident Serj Sarkisyanın əmri ilə tutduğu silahlı qüvvələrin baş qərargahının kəşfiyyat idarəsinin rəisi vəzifəsindən azad edilmişdi. İddialara görə, Karapetyanın rəhbərlik etdiyi kəşfiyyat idarəsi vəzifələrini yerinə yetirməkdə səhlənkarlığa yol verib, nəticədə Hayastan 2016-cı ildə Aprel döyüşləri ilə bağlı kifayət qədər məlumat əldə edə bilməyib.

O, bir müddət sonra Hayastanın baş naziri Nikol Paşinyana qoşulub. Paşinyan 2021-ci ildə əvvəl onu Baş Qərargah rəisinin birinci müavini, sonra müdafiə naziri vəzifəsinə təyin edib. 2022-ci ildə isə vəzifəsindən azad edilib.

Baş verən siyasi proseslər fonunda əsas diqqət çəkən məqamlardan biri də son vaxtlar sabiq prezidentlər Serj Sarkisyanla Robert Koçaryanın ortalarda görünməməsidir. Erməni mediası yazır ki, Robert Koçaryan artıq siyasi meydandan çəkilib və nəzarətindəki media orqanlarını idarə etmir.

"4rd.am" nəşri yazıb ki, Koçaryan və onun ailəsinin adı ilə bağlı olan media orqanlarında ixtisarlar başlayıb, onların maliyyəsi kəsilib. Qeyd olunur ki, R.Koçaryan siyasi meydanı tərk etməsi ilə bağlı komandasını da məlumatlandırıb. Görünən odur ki, R.Koçaryanın Ermənistanın gələcəyi ilə bağlı bütün ümidləri boşa çıxıb.

Bütövlükdə Hayastanda hazırda gərgin proseslər baş verir və bütün bunlar bir daha erməni dövlətinin miskin durumunu göstərir. Qərbin yeni avantüralarına qoşulması isə Ermənistanı daha acınacaqlı vəziyyətə salacaq.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***



# Antiazərbaycançı şəbəkənin qəsd planı iflasa məhkumdur

## Azərbaycan Qərbin məkrini iflasa uğradacaq

### Brüssel görüşünün təşkilatçıları Cənubi Qafqazı fəlakətə sürükləyə bilməyəcəklər

**"Hazırda dünyada, o cümlədən Cənubi Qafqazda proseslər çox təhlükəli istiqamətdə gedir və bununla bağlı Azərbaycan haqlı olaraq öz narahatlığını ifadə edir. Belə ki, Cənubi Qafqaz üçün cızılan plan gələcəkdə böyük fəlakətə gətirə bilər".**



Prezident İlham Əliyevin aprelin 5-də Türkiyə Böyük Millət Məclisinin millət vəkili və NATO Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Mövlud Çavuşoğlunu qəbul etdiyi zaman səsləndirdiyi kimi, siyasi iradəsi olmayan Ermənistandan istifadə edərək regionda bölücü xətlər yaratmaq istəyən Qərb bölgədə münaqişə ocağı yaratmağa çalışır. Belə ki, Ermənistana göstərdiyi hərbi dəstəklə Azərbaycanın sülh səylərinə zərbə vurur.

### Yeganə səbəb Qarabağın işğaldan azad edilməsidir

Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsi, suverenliyini təmin etməsi, ərazisində separatizmin kökünü kəsməsi Cənubi Qafqazla bağlı fərqli planları olan, başda ABŞ və Fransa olmaqla, bəzi Aİ ölkələrinin yuxularını ərşə çəkib.

Buna görədir ki, əllərində olan bütün rıçaqları işə salıblar və oyuncaqlarına çevirdikləri korrupsiyalaşmış qurumlar, KİV vasitələri ilə Azərbaycana qarşı qərəzli təzyiq, qarayaxma kampaniyalarına başlayıblar.

Azərbaycana doğru "səlib yürüşü"nə çıxan məkrli qüvvələr bir yandan da təcavüzkar Ermənistanı silahlandıraraq, ona hərbi dəstək verib revanşa hazırlayırlar.

Prezident İlham Əliyev Mövlud Çavuşoğlu ilə görüşdə bütün bu məsələləri diqqətə çatdıraraq bildirdi ki, Qarabağı işğaldan azad etməyimiz, xüsusilə keçən ilin sentyabrında həyata keçirdiyimiz antiterror əməliyyatı bəzi qüvvələri narahat edib. O vaxtdan bu günədək bizə olan təzyiqlər durmadan davam edir. Avropa Parlamenti təhqirlə dolu çirkin qətnamələr qəbul edib. AŞPA nümayəndə heyətimizi səsvermə hüququndan məhrum edib. Dövlət başçısı deyib: "Bunlar çox mənfi fəsadlara gətirə biləcək addımlardır və bunun yeganə səbəbi Qarabağı işğaldan azad etməyimizdir".

ABŞ və Fransa kimi qərəzli ölkələr Azərbaycanın beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində milli maraqlarını təmin etməsini heç cür həzm edə bilmirlər.

"Xristian təəssübkeşliyi" edən bu ölkələr Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanmasında vasitəçi ölkə kimi də onilliklər boyu ikilistandartlı mövqedən çıxış ediblər. Azərbaycanın ərazilərinin 30 illik işğalı dövründə bir dəfə də olsun işğalçı Ermənistana qarşı hansısa xəbərdarlıq, təzyiq, sanksiyadan danışmayıblar, hərbi hədə gəlməyiblər. İrəvanın BMT TŞ-nin məlum 4 qətnaməsinə məhəl qoymamasına göz yumublar, yəni özləri də beynəlxalq hüququ tapdalayıblar. Ermənistan tərəfindən bir milyondan çox azərbaycanlının qaçqın, məcburi köçkün vəziyyətinə salınması, işğal altındakı torpaqlarımızın yerlə yeksan olunması, tarixi, dini, mədəni irsimizin talanması, dağıdılması, ərazilərimizin mina tarlasına çevrilməsi indi bir ovuc erməninin olmayan problemlərindən hay-həşir qoparan ABŞ-ni, Aİ ölkələrini heç zaman narahat etməyib.

Reallıq budur ki, Azərbaycanın qazandığı zəfərlər bölgədə münaqişəni tamamilə bitirib və sülh üçün tarixi imkan yaradıb və Bakı bu istiqamətdə mühüm səy göstərir.

### Bu, Azərbaycanı təcrid etmək məqsədi güdür

Ancaq hadisələrin bu məcrada inkişafı ABŞ-ni, Avropanın bəzi ölkələrini qane etmir. Onların Ermənistana hərbi dəstək göstərmələrinin, silahlandırmalarının nəticəsidir ki, İrəvan özünün də xilası olacaq sülh müqaviləsini imzalamaq əvəzinə bu gün ölkəmizə qarşı hərbi təxribatlar törədir, sərhədlərimizi atəşə tutur.

Bütün bu faktlara baxmayaraq, qərəzli Qərb təsisatları israrla Azərbaycanı aqressiyada, Ermənistana hücum edəcəyi kimi absurd iddialarda günahlandırmağa çalışırlar.

Göründüyü kimi, öz çirkin maraqları naminə bölgədə baş verənləri erməni ağzı ilə tirajlayan ABŞ-Aİ cütlüyü ipini eyni anda bir neçə ölkənin əlinə verən Ermənistan üzərindən bölgədə Qərb-Rusiya qarşıdurmasının ikinci raundunu başlatmaq istəyir.

Aprelin 5-də Brüsseldə keçirilən ABŞ-Aİ-Ermənistan üçtərəfli görüşünün, hər nə qədər iştirakçı tərəflər dansalar da, hərbi komponentlər ehtiva etməsi də Cənubi Qafqazla bağlı pərdə arxasında müharibə planlarının cızıldığını ortaya qoyur.

Xatırlatmaq yerinə düşər ki, bu ayın 3-də və 4-də ABŞ Dövlət katibi E.Blinken və Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen Prezident İlham Əliyevə zəng edərək aprelin 5-dəki üçtərəfli görüşün mahiyyəti, məramı, məqsədi barədə hesabat verdilər. Onlar dövlət başçısını əmin etməyə çalışdılar ki, bu görüş Azərbaycana qarşı deyil...

Amma rəsmi açıqlamalardan başqa, 5 aprel görüşü ilə bağlı məxfi komponentlərin olmasının özü də göstərir ki, hadisələr heç də göründüyü və təqdim olunduğu kimi deyil.

Mövlud Çavuşoğlu ilə görüşdə Prezident İlham Əliyev Brüsseldə keçirilən üçtərəfli görüşə toxunaraq, "bununla Cənubi Qafqaz üçün növbəti təhlükə mənbəyi yaradılır" söylədi.

"Halbuki son günlər həm ABŞ-nin, həm də Avropa İttifaqının yüksəkvəzifəli şəxsləri onların təşəbbüsü ilə baş tutan telefon danışıqları əsnasında bizi inandırmağa çalışmışlar ki, bu görüş Azərbaycanın əleyhinə deyil" söyləyən Prezident İlham Əliyev qeyd etdi ki, lakin biz bunun Azərbaycanın və Cənubi Qafqazda işbirliyinin əleyhinə olduğunu bilirik. Bu, ayırıcı xətlərin yaradılması və ölkəmizi təcrid etmək məqsədi güdür.

### Ermənistan təhlükəli sularda üzür

Qərbin Cənubi Qafqazla bağlı qanlı planları Türkiyənin, eləcə də Rusiyanın da narahatlığına səbəb olub.

Türkiyə Xarici İşlər Nazirliyi aprelin 5-də yaydığı bəyanatında Brüsseldə keçirilməsi planlaşdırılan ABŞ-Aİ-Ermənistan üçtərəfli görüşünü pisləyib və bunun Cənubi Qafqazda sülhün və sabitliyin təmin edilməsi cəhdlərinə zərər verəcəyini bildirib: "Bu təşəbbüs Azərbaycanın mövqeyinə məhəl qoymur və sülh prosesinə deyil, Cənubi Qafqazı geosiyasi qarşıdurma zonasına çevirməyi planlaşdırır".

Moskva da ABŞ-Avropa İttifaqı-Ermənistan formatında Brüsseldə keçirilən görüşü Cənubi Qafqazı geosiyasi qarşıdurmaya sürükləmək üçün "kollektiv Qərb"in növbəti cəhdi kimi qiymətləndirib.

Bu barədə Rusiya Xarici İşlər Nazirliyinin ABŞ-Aİ-Ermənistan görüşü ilə bağlı 5 aprel tarixli bəyanatında bildirilir ki, regiondankənar qüvvələrin Cənubi Qafqazın işlərinə məsuliyyətsiz və destruktiv şəkildə müdaxiləsi, region ölkələri və onların qonşuları arasında nifaq salmaq istəyi regionda sabitlik, təhlükəsizlik və iqtisadi inkişaf üçün olduqca mənfi nəticələrə, yeni haçalanmış fikirlərin yaranmasına, həmçinin nəzarətdənkənar gərginliyin artmasına səbəb ola bilər.

Moskva Ermənistan rəhbərliyini Qərbin onu aldatmasına imkan verməməyə və ölkəni təhlükəsizlik vakuumunun yaranması, iqtisadiyyatda ciddi problemlərin meydana gəlməsi və əhalinin ölkədən axın etməsi ilə müşayiət olunacaq yanlış yolla aparmamağa çağırıb: "Xarici oyunçuları bu razılaşmalara hörmət etməyə çağırır, İrəvandakı hakim dairələri isə öz xarici siyasət xətlərini qurduqları zaman qonşu dövlətlərin narahatlıqlarını nəzərə almağa dəvət edirik".

Göründüyü kimi, Qərb təsisatları Cənubi Qafqazda müharibə fitilini alovlandırmaq, Rusiyaya qarşı ikinci Ukrayna cəbhəsi açmaq üçün marionet Ermənistanı qurban seçib. Hələ də Azərbaycana qarşı ərazi iddiası güdən, "böyük Ermənistan" kimi sarsaq ideyalardan qurtula bilməyən avantürist İrəvan isə parçalanmaq, bir dövlət kimi yox olmaq təhlükəsinin astanasında olduğunu nəzərə almayaraq, təhlükəli sularda üzməyə davam edir. Ancaq çox keçmədən qərbsevər Paşinyan hökumətinin bu axmaqlığının Ermənistanın başında çatlayacağı gün kimi ortadadır...

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## Azərbaycanın yaratdığı reallığı heç bir qüvvə dəyişə bilməz

**"Brüsseldə Avropa İttifaqı və ABŞ-nin Ermənistanla üçtərəfli konfransı Qərbin təcavüzkar niyyətlərini bir daha göstərməklə bərabər, həm də memarı Prezident İlham Əliyev olan yeni reallığın konturlarını nümayiş etdirdi. Bir daha aydın oldu ki, İlham Əliyev Vətən müharibəsində və antiterror tədbirlərindəki qələbəsi ilə regionda elə geosiyasi konfiqurasiyaya nail olub və elə bir hərbi-siyasi reallıq yaradıb ki, uzun illər ərzində bizi görməzdən gələnlər, Azərbaycanın rəyini nəzərə almadan Ermənistanın işğal və təcavüz siyasətinə hərbi-siyasi dəstək verənlər artıq Cənubi Qafqazda Bakı ilə hesablaşmağın zəruri olduğunu başa düşürlər".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib. Deputat bildirib ki, ABŞ-nin Dövlət katibi Entoni Blinken və Avropa Komissiyasının sədri Ursula fon der Lyayenin görüş öncəsi Azərbaycan Prezidentinə zəngi də, şübhəsiz ki, məhz bu zərurətdən doğmuşdu: "Hər iki zəngdə Qərb funksionerləri üçtərəfli görüşün Azərbaycan tərəfdə narahatlıq doğurduğuna dair xəbərlər aldıqlarını və bu xüsusda Prezident İlham Əliyevlə danışaraq məsələyə aydınlıq gətirilməsini vacib hesab etdiklərini bildirdilər. Qərbin Azərbaycanı israrla inandırmağa çalışması da bir daha təsdiq edir ki, regionda maraqlarını müdafiə etmək niyyətində olan hər kəs Bakı ilə hesablaşmalıdır. Bu, hazırkı gərgin dönəmdə Prezident İlham Əliyevin qlobal miqyasda prosesə təsir imkanlarına malik lider obrazını bir daha önə çıxardı. Qlobal arena növbəti dəfə şahidlik etdi ki, Azərbaycanın milli maraqları və mövqeyi xalqın mənafeləri rəhbər tutulmaqla dövlət başçısı tərəfindən qətiyyətlə və prinsipiallıqla qorunur".

Bəhruz Məhərrəmovun sözlərinə görə, aprelin 5-də ABŞ-Aİ-Ermənistan arasında baş tutan məlum tədbirin gedişatı Azərbaycanın mövqeyində nə qədər haqlı olduğunu bir daha ortaya çıxardı. Hələlik təcavüzkar mahiyyət daşıyan görüş barədə təkcə tərəflərin rəsmi açıqlamalarına istinadən mühakimə yürütmək sadəlövhlük olar. Düzdür, görüş gözləndiyi qədər təsir yükünə malik olmadı, hətta Ermənistan mediasında belə görüşə qədərki ab-hava müşahidə edilmədi. Lakin birmənalı şəkildə deyə bilərik ki, müzakirələr açıqlanmayan məxfi komponentlərlə zəngin olub.

"ABŞ Dövlət katibi və Avropa Komissiyasının sədri Prezident İlham Əliyevə zəng edərək bizi əmin etmək istəyirdilər ki, Ermənistanla bağlı həyata keçirilməsi nəzərdə tutulan tədbirlər Azərbaycana qarşı yönəlməyib. Amma dövlətimizin başçısının Türkiyə Böyük Millət Məclisinin NATO Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Mövlud Çavuşoğlunu qəbul edərkən vurğuladığı kimi, "biz bunun Azərbaycanın və Cənubi Qafqazda işbirliyinin əleyhinə olduğunu bilirik. Bu, ayırıcı xətlərin yaradılması və ölkəmizi təcrid etmək məqsədi güdür". Əslində, Qərb rəsmilərinin iddialarının Bakını qane etməməsi üçün həqiqətən ciddi əsaslar var. Elə müzakirə tərəflərinin Azərbaycana münasibətdə bu günə qədər nümayiş etdirdikləri davranışlar çox şeydən xəbər verir", - deyə müsahibimiz əlavə edib.

Deputat vurğulayıb ki, işğal və separatizmə son qoyaraq ərazi bütövlüyünü təmin etməklə Azərbaycanın beynəlxalq hüququn aliliyinə nail olmasından sonra Qərb ölkəmiz əleyhinə davamlı qarayaxma kampaniyası aparır, Ermənistanı yeni münaqişəyə təşviq edir: "Ona görə də ötən dövrün təcrübəsindən qaynaqlanan real arqumentlərə söykənən rəsmi Bakı ABŞ, Avropa İttifaqı və Ermənistan arasındakı konfransı regionda sülh və sabitlik perspektivləri üçün zərərli hesab etməkdə kifayət qədər haqlıdır". Müsahibimizin sözlərinə görə, Prezident İlham Əliyev də onu inandırmağa çalışan Qərb rəsmilərini başa saldı ki, biz proseslərə informasiya nəzarətini kifayət qədər təmin edə biləcək qədər güclüyük. Azərbaycanın ifadə etdiyi hər bir mövqenin arxasında kifayət qədər səhih informasiyalar dayanır və reallıqlar Entoni Blinken və Ursula fon der Lyayenin arqumenti ilə üst-üstə düşmür. Ən azından unudulmamalıdır ki, son bir neçə ayda Qərbdə Azərbaycanın Ermənistana hücum etmək niyyətində olduğu barədə tamamilə əsassız ittihamlar irəli sürülməsinin, digər total və məqsədli dezinformasiyaların yayılmasının təməlində Fransa, ABŞ və Avropa İttifaqının strukturları dayanır. Belə olan halda Bakının üçtərəfli konfransa anti-Azərbaycan blokunun fəaliyyəti kimi baxmağa tamamilə haqqı var.

"Ermənistan mətbuatının yazdığına görə, konfransda Nikol Paşinyan Qərbin səylərinin "mənzil və iqtisadi siyasət vasitəsilə "Dağlıq Qarabağdan" olan qaçqınların layiqli həyatının təmin edilməsinə yönəldiyini" bəyan edib. Lakin Prezident İlham Əliyevin də bildirdiyi kimi, "üçtərəfli görüşün qeyri-şəffaf hazırlanması, qeyri-inklüziv xarakter daşıması" fonunda əminliklə demək olar ki, ayrılacaq vəsait yalnız dinc məqsədlərə xidmət etməyəcək. Heç şübhəsiz ki, məhz bu yardımlar hesabına Qərb Ermənistanı Cənubi Qafqazda bir silahlı forpost kimi yaratmaq niyyətindədir. Bu bir daha göstərir ki, Azərbaycan bu konfransın regionda gərginliyə xidmət etməsi və gələcəkdə çox böyük fəsadlar törədəcəyi barədə mövqeyində nə qədər haqlı imiş. Əgər Qərb səmimi olaraq Ermənistanın iqtisadi inkişafında maraqlıdırsa, separatçı görüşlərdən çəkinib İrəvanın regional layihələrdən kənarda qalaraq dalan dövlətə çevrilməsinin kökündə dayanan səbəblərin aradan qaldırılmasına kömək etməli idi", - deyə deputat əlavə edib.

Bəhruz Məhərrəmov sonda deyib ki, Qərbin ikili standartları Bakını təəccübləndirmir: "Prezident də fevralın 14-də andiçmə mərasimində açıq şəkildə bəyan etdi ki, yaratdığımız reallıqlardan sonra bizdən əl çəkməyəcəklər. Eyni zamanda cənab İlham Əliyev dəfələrlə bildirib ki, Azərbaycan proseslərin istənilən inkişaf tendensiyasına hazırdır və heç bir səy Bakının yaratdığı reallığı dəyişə bilməz. Brüssel görüşü də Azərbaycanın formalaşdırdığı yeni hərbi-siyasi konfiqurasiyaya təsir etməyəcək. Proseslərin yekununda zərərçəkən tərəf yalnız və yalnız yenə də əl dəyişməyə çalışaraq özünə yeni hami axtaran Ermənistan və miflərin əsirinə çevrilmiş erməni xalqı olacaq".

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

## Brüssel görüşü həm də Azərbaycan-Türkiyə birliyinə qarşı yönəlib

**"Aprelin 5-də ABŞ-Aİ-Ermənistan arasında keçirilmiş Brüssel görüşünün formatının, açıq və gizli gündəliyinin, qeyri-inklüziv və qeyri-şəffaf olmasının ölkəmizin milli maraqlarına yönəlməsi barədə fikirlərini Prezident İlham Əliyev həm ABŞ-nin Dövlət katibi Blinkenlə, həm də Avropa Komissiyasının Prezidenti Ursula fon der Lyayenlə onların təşəbbüsü ilə baş tutan telefon danışığı zamanı açıq şəkildə bildirib.**



Onların hər ikisi Azərbaycanın legitim narahatlığını azaltmağa və bu görüşün ölkəmizə qarşı olmadığına inandırmağa çalışsalar da, dövlət başçısı Türkiyə Böyük Millət Məclisinin üzvü və NATO Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Mövlud Çavuşoğlunu qəbul edən zaman bir daha bildirdi ki, Brüssel görüşü Azərbaycanın və Cənubi Qafqazda işbirliyinin əleyhinədir, burada əsas məqsəd bölgədə ayırıcı xətlərin yaradılması və ölkəmizin təcrid edilməsidir".

Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Azay Quliyev deyib. Deputat bildirib ki, Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsi və Qarabağda separatizmə birdəfəlik son qoyması faktı bəzi Qərb ölkələrini ciddi narahat etdiyindən onlar Avropa Parlamenti və Avropa Şurasından ölkəmizə qarşı istifadə edir, bizə qarşı əsassız və qərəzli qərarlar verilməsinə çalışırlar.

O, xatırladıb ki, dövlət başçısı ABŞ və Avropa İttifaqının Ermənistanı Cənubi Qafqazda silahlı forpost kimi yaratmaq cəhdlərinin gələcəkdə çox böyük fəsadlar törədəcəyi barədə xəbərdar edib. "Geosiyasi vəziyyətin dəyişdiyini deyən Prezident İlham Əliyev belə bir şəraitdə Azərbaycan-Türkiyə birliyinin hər zaman olduğu kimi, bu gün də güclü olmasının vacibliyini qeyd edib və bu birliyi pozmaq istəyənlərin arzularının puç olacağına əminliyini bildirib. Bəli, bu gün Brüssel görüşü həm də Azərbaycan-Türkiyə birliyinə qarşı yönəlib, bu baxımdan iki qardaş ölkənin sıx əməkdaşlığına daha çox ehtiyac var. Aprelin 5-də Azərbaycan Parlamentində Şimali Kipr Türk Cümhuriyyəti ilə əməkdaşlıq üzrə işçi qrupunun yaradılması təsadüfi deyil, bu, ölkəmizin türk dünyasının birlik və bərabərliyi üçün növbəti dəfə atdığı ən güclü və cəsarətli addımlardan biridir", - deyə deputat əlavə edib.

A.Quliyev qeyd edib ki, Ursula fon der Lyayen və ya Cozef Borel bütövlükdə Avropa demək deyil. Azərbaycan Avropa İttifaqının 9 üzv ölkəsi ilə strateji tərəfdaşlıq haqqında saziş imzalayıb, İtaliya, Rumıniya, Bolqarıstan, Macarıstan və sairə kimi etibarlı dost və müttəfiqlərimiz var. Onlar lazım olanda öz sözlərini mütləq deyəcəklər.

Azərbaycanın son 4 ildə Qoşulmama Hərəkatına rəhbərlik etməsinin ölkəmizə çox böyük üstünlüklər gətirdiyini deyən deputat bildirib ki, indi Azərbaycanla əməkdaşlığa təkcə Avropa və ya Asiya dövlətləri can atmır, artıq Afrikanın önəmli ölkələri də ölkəmizlə hərtərəfli əməkdaşlıq etmək istəyirlər: "Aprelin 4-də Konqo Respublikası Prezidentinin Bakıya ilk rəsmi səfəri, Azərbaycanın Konqoda bir çox investisiya layihəsində, xüsusilə kənd təsərrüfatı, bərpaolunan enerji, energetika, mədənçilik və digər sahələrdə əməkdaşlıq perspektivləri xarici siyasətimizdə yeni paradiqmaların və baxışların yarandığını təsdiq edir. Azərbaycan artıq dünyada "orta güc" kimi çıxış edir. Azərbaycanın gələcək inkişafı, milli maraqlarının qorunması, dünyada mövqeyinin daha da möhkəmləndirilməsi üçün fevralın 14-də Milli Məclisdə keçirilən inaqurasiya mərasimində cənab Prezidentin elan etdiyi xarici siyasət prioritetləri öz bəhrəsini verir".

Deputat vurğulayıb ki, Brüsseldə yığışıb kimin nə danışmasından və hansı qərar qəbul etməsindən asılı olmayaraq, ərazilərini işğaldan azad etmiş, suverenliyini və konstitusion quruluşunu tam bərpa etmiş Azərbaycanın milli maraqlarını bundan sonra kimsə heçə saya bilməz. Ölkəmizin iştirakı və razılığı olmadan Cənubi Qafqazda heç bir layihənin uğur qazanması mümkün deyil. Heç kim unutmasın ki, Azərbaycan istənilən təhdidə və təhlükəyə qarşı adekvat cavab vermək gücündədir. Bunu son 4 ildə baş verən hadisələr dəfələrlə sübut edib.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Ermənistan indi də Qərbin forpostu olmaq yolunu tutub

**"Prezident İlham Əliyev Türkiyənin sabiq xarici işlər naziri Mövlud Çavuşoğlu ilə görüşündə çox ciddi və dəyərli fikirlər səsləndirdi. M.Çavuşoğlu da Azərbaycan liderinin dünyada böyük nüfuzu olduğunu, eyni zamanda andiçmə mərasimində "Bizim ailəmiz türk dünyasıdır" sözünün türk dünyasında məmnunluqla qarşılandığını qeyd etdi. Sabiq nazir Türkiyənin daim Azərbaycanın yanında olacağını bir daha bəyan etdi".**



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Tahir Kərimli deyib. Deputat dövlət başçısının görüşdə Çavuşoğlunun Azərbaycanın yanında olmasını yüksək qiymətləndirdiyini bildirərək, xüsusilə İkinci Qarabağ müharibəsi zamanı müntəzəm surətdə çox önəmli açıqlamalar verdiyini xatırladıb. Prezident qeyd edib ki, bu açıqlamalar öz növbəsində Azərbaycanın işinə qarışmaq istəyən qüvvələrin qarşısının alınmasında önəmli rol oynayıb.

T.Kərimli qeyd edib ki, Prezident İlham Əliyevin çıxışında önəmli məqamlardan biri də hazırda dünyada gedən proseslər, ABŞ və Avropa İttifaqının Cənubi Qafqazda yeni ayırıcı xətlər müəyyən etmələri, təhlükəli vəziyyət yaratmaları ilə bağlı idi. Qərb Ermənistanı silahlı forposta çevirmək istəyir ki, bu da region üçün böyük təhdid yaradır. Balaca Ermənistanın bu cür silahlandırılması, alətə çevrilməsi Cənubi Qafqazda narahatlıq yaradır. Sülhə bu qədər yaxın, iki dövlət arasında münasibətlərin normallaşmasının mümkün olduğu halda hadisələrin başqa yöndə körüklənməsi, Ermənistana hər cür yardım göstərilməsi, növbəti 4 il üçün proqram müəyyən edilməsi çox böyük təhlükələrdən xəbər verir. "Prezident İlham Əliyev də qeyd edib ki, bütün bunların əsas səbəbi işğal altında olan torpaqlarımızı azad etməyimizdir. Bununla da islamofobiya üzərində qurulan Qərb türk və islam dövlətlərinə nifrətini açıq büruzə verməyə başladı. Avropa Azərbaycanın qələbəsi ilə heç cür barışa bilmir. Oradakı qüvvələr məkrli məqsədləri üçün təhlükəli vəziyyət yaratmağa çalışırlar. Açığı desək, regionda vəziyyət heç də yaxşı deyil, hər an dəyişə bilər. Ermənistan müstəqil siyasət yürüdə bilmədiyindən keçmiş prezidentləri Sarkisyan və Koçaryanın fəallaşması, sabiq müdafiə naziri Ohanyanın müəyyən bölgələrə getməsi və əhalini qızışdırması revanşist qüvvələrə rəvac verir", - deyə o əlavə edib.

Deputat vurğulayıb ki, regionda ABŞ və Qərbin Ukraynadan başqa daha bir cəbhə açmaq cəhdləri də özünü göstərir. Burada alət kimi Ermənistanın seçilməsi aydın görünür.

M.Çavuşoğlu ilə görüşdə Prezident İlham Əliyevin narahatlığını ifadə etdiyini xatırladan T.Kərimli hesab edir ki, Ermənistan Azərbaycanın mövqeyini, bəyanatlarını ciddi şəkildə nəzərə almalı və qızışdırıcı mövqedən əl çəkməlidir. Əks halda yeni münaqişə ocağı yaranacaq, bu da ona baha başa gələcək.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Qərb Cənubi Qafqazı qarşıdurma məkanına çevirmək istəyir

**Aprelin 5-də Brüsseldə ABŞ Dövlət katibi Entoni Blinken, Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen və Ermənistanın baş naziri Nikol Paşinyan arasında gözlənilən görüş baş tutdu. Ermənistanın Belçikadakı səfirliyində keçirilən görüş ermənilərin gözlədiyi kimi elə də təmtəraqlı keçirilmədi.**



Görüşlə bağlı yayılan xəbərlər, səslənən bəyanatlar da bunu deməyə əsas verir ki, hər şey Ermənistan mətbuatının yazdığı kimi olmadı. Görüş dünya gündəmini zəbt etmədi. Görüşdə qərara gəlindi ki, Ermənistana sədəqə ayrılsın, iqtisadi kömək göstərilsin, yardım edilsin. Təbii ki, bu yardım da əvəzsiz olmayacaq. Yardımın əvəzində Ermənistanın qarşısında müəyyən tələblər qoyulacaq. Qərb pulu boş-boşuna xərcləmir, havayı vermir. Havayı tikə yalnız tələdə olur. Ermənistan bu gün Qərbin tələsinə düşmüş məğmın, iqtisadi çətinliklər içində boğulan bir dövlətdir. Olunan bu yardım və kömək İrəvanı sonda ciddi fəlakətlərə sürükləyəcək.

Bir çox şərhçi Brüssel görüşünü anti-Rusiya qüvvələrinin triumfu kimi qiymətləndirir. Çünki səslənən bəyanatların və təşəbbüslərin əksəriyyəti buna yönəlib. Yayılan məlumatlardan aydın olub ki, Avropa İttifaqı qarşıdakı dörd ildə Ermənistana 270 milyon avro, ABŞ isə 65 milyon dollar yardım ayıracaq. Maraqlı odur ki, bəs Ermənistan ayrılan vəsaitlər üçün dörd il ərzində hansı addımlar atacaq, bunun əvəzini nə ilə ödəyəcək? Yəqin ki, Ermənistan verilən təlimata uyğun olaraq Rusiya əleyhinə addımlar atmalı və bu istiqamətdə müəyyən qərarlar qəbul etməlidir. Bura çox güman ki, 102-ci hərbi bazanın çıxarılması, KTMT-ni tərk etmə və başqa şərtlər daxildir.

Gələcəkdə Azərbaycanla sərhəddə Ermənistanın təxribatlar törətməsi məsələsinə gəldikdə isə qeyd edək ki, ABŞ və Aİ ən yüksək səviyyədə Azərbaycanı bunun baş verməyəcəyinə əmin ediblər. Onlar bildiriblər ki, Ermənistanla bağlı həyata keçirilməsi nəzərdə tutulan tədbirlər Azərbaycana qarşı yönəlməyib. Amma bu iddiaların Azərbaycanı qane etməməsi üçün ciddi əsaslar var. İstənilən halda hər şey yaxın zamanlarda bəlli olacaq.

Azərbaycan açıq bəyan edib ki, Avropa İttifaqı və ABŞ tərəfindən bu kimi fəaliyyətlər açıq şəkildə birtərəfli, qərəzli xarakter daşıyır. Sözügedən görüş də şəffaf şəkildə keçirilmir, regional inklüzivlikdən məhrumdur və regionda təşviq edilən və çox ehtiyac duyulan etimad quruculuğuna və inteqrasiyaya ziddir.

Üçtərəfli görüşlə bağlı Rusiya Xarici İşlər Nazirliyi bəyanat yayıb. Rəsmi Moskva görüşü Qərbin Cənubi Qafqazı geosiyasi qarşıdurmaya sürükləmək üçün növbəti cəhdi kimi qiymətləndirib. Bildirib ki, regiondankənar qüvvələrin Cənubi Qafqazın işlərinə məsuliyyətsiz və dağıdıcı müdaxiləsi, region ölkələri ilə onların qonşuları arasında nifaq salmaq istəyi regionda sabitlik, təhlükəsizlik və iqtisadi inkişaf üçün mənfi nəticələyə, yeni ayırıcı xətlərin yaranmasına, habelə gərginliyin idarəolunmaz hala gəlməsinə səbəb ola bilər. Aydındır ki, Qərb Ermənistanı Cənubi Qafqazda özünün təhlükəli planlarının həyata keçirilməsi üçün alətə çevirmək istəyir.

Türkiyə Xarici İşlər Nazirliyinin yaydığı bəyanatda isə deyilir ki, Ermənistan-Aİ-ABŞ üçtərəfli görüşü regiondakı mürəkkəb problemlərin həlli üçün əsas götürülməli olan neytrallıq yanaşmasına zərbə vuracaq. Azərbaycanın iştirakı nəzərdə tutulmayan bu təşəbbüs Cənubi Qafqazda sülhə xidmət etməkdənsə, regionun geosiyasi qarşıdurma məkanına çevrilməsinə yol açacaq.

Aİ-Ermənistan-ABŞ müştərək görüşünün birtərəfli və qərəzli xarakter daşıdığı göz qabağındadır. Ermənistan anlamalıdır ki, Qərbin ikili standartları dünyanın heç bir ölkəsinə sülh gətirməyib. Regionu risk altında qoymağa çalışan bəzi dövlətlərin İrəvanda yaratdığı xoş illüziyalar təhlükəli reallıqla sona çatacaq. İtirən isə yalnız Ermənistan olacaq.

Ermənistan və Azərbaycan sülhə heç vaxt olmadığı qədər yaxın idi. Ancaq Brüssel görüşü Qərbin regional sülhlə bağlı səmimi olmamasını, regionda yeni bölücü xətlər yaratmaq cəhdini göstərir. Çünki bu görüş qeyri-şəffaf hazırlanmışdı. Deməli sülhə, əmin-amanlığa xidmət etmirdi. Ermənistan və Rusiya münasibətlərinin mürəkkəbləşdiyini görən Qərbin əsas məqsədi Moskvaya qarşı regionda yeni münaqişə ocağı yaratmaq, İrəvanı Azərbaycana qarşı revanşa hazırlamaqdır. Bu gün Azərbaycan regionda sabitlik istəyir və beynəlxalq hüququn əsas norma və prinsipləri əsasında praktiki sülhə nail olmaq üçün real imkanlar təklif edir. Sülh müqaviləsinin təşəbbüskarı da Azərbaycandır. Təəssüf ki, Brüssel görüşü iki ölkə arasında bağlanacaq sülh müqaviləsinə, yumşaq desək, zərbədir. Çünki Ermənistan Qərbin vədlərinə aldanaraq müxtəlif bəhanələrlə sülh müqaviləsini imzalamağa tələsmir. Sonda uduzan tərəf yenə də Ermənistan olacaq. Çünki sülhdən imtina edən dövlət məhvə sürüklənməlidir. Tarixboyu həmişə belə olub, indən sonra da belə olacaq.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

## Ermənistan Qərbin təsiri ilə sülh prosesindən yayınır

**"İrəvan xarici təzyiqlər altında sülh müqaviləsi imzalamaqdan qaçırsa, deməli, Azərbaycan-Ermənistan şərti sərhədində atəşkəsin pozulması üçün zəmin formalaşır. Belə olan halda sərhəddə müəyyən təxribatların törədilməsi təəccüblü deyil. Xüsusilə də danışıqlar ərəfəsində, beynəlxalq səviyyədə hər hansı bir tədbirin keçirilməsi zamanı ermənilərin atəşkəsi pozması ənənə halını alıb".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında hərbi ekspert, ehtiyatda olan polkovnik Şair Ramaldanov deyib. O bildirib ki, ABŞ və Avropa İttifaqı regionda öz maraqlarını təmin etmək üçün fəallaşıblar. Həmin siyasi qüvvələrin əsas məqsədlərindən biri də Rusiyanı Cənubi Qafqazdan çıxarmaq və bu ölkənin maraqlarını məhdudlaşdırmaqdır. Bu da regionda iki güc mərkəzinin toqquşması deməkdir.

"Beləliklə, mütəmadi olaraq Azərbaycan-Ermənistan şərti sərhədində hansısa təxribat, yaxud atəşkəs fonunda beynəlxalq institutların regiona cəlb olunmaları və buranı diqqət mərkəzində saxlamaları həmin qurumlar tərəfindən müəyyən qərarların qəbul olunması ilə nəticələnir. Bu qərarlar da, təbii ki, həmin institutları idarə edən Avropa İttifaqı və ya ABŞ-nin maraqlarına xidmət edir. Belə olan halda sözügedən qərar və sənədlər əsasında elə bir hüquqi zəmin formalaşır ki, regiondankənar oyunçular Cənubi Qafqaza daxil ola və burada öz maraqlarını təmin etmək üçün platforma yarada bilərlər. Ona görə də Ermənistanın sərhəddə gərginlik yaratması özünə və havadarlarına sərf edir", - deyə ekspert söyləyib.

Şair Ramaldanov həmçinin qeyd edib ki, Ermənistanın silahlandırılması və bu ölkəyə göstərilən digər dəstəklər region üçün yaxşı heç nə vəd etmir: "ABŞ və Avropa İttifaqı tərəfindən İrəvana 4 il ərzində qrantlar şəklində verilməsi planlaşdırılan vəsait təhlükəlidir. Çünki Ermənistan, sözsüz ki, ABŞ və Avropa İttifaqının xeyrinə hansısa öhdəlik götürməlidir. Yəni İrəvan mütləq hansısa sifarişləri yerinə yetirməlidir ki, həmin vəsaitə yiyələnə bilsin. Bu da onu deməyə əsas verir ki, yaxın gələcəkdə sülh müqaviləsinin imzalanması gözlənilən deyil. Əksinə, Ermənistan ABŞ və Aİ-ni razı salmaqdan ötrü atəşkəsi daha tez-tez pozmağa meyillənəcək".

Ekspertin sözlərinə görə, Ermənistan tərəfindən guya şərti sərhədi möhkəmləndirmək üçün həyata keçirilən tədbirlər qəbuledilməzdir. Nəzərə almaq lazımdır ki, sərhədlər şərtidir, yəni hələ müəyyənləşdirilməyib. Belə olan halda Ermənistanın şərti sərhəddə apardığı işlərin qarşısını almaq üçün Azərbaycan tərəfi xəbərdarlıq etdikdən sonra lazımi tədbirlər həyata keçirə bilər. Bunu hərbi cəhətdən də əsaslandırmaq mümkündür.

"Son zamanlar atəşkəsin pozulması regiona müdaxilə etmək istəyən qüvvələrlə Ermənistan arasında aparılan danışıqların nəticəsindən xəbər verir. Lakin unudulmamalıdır ki, Azərbaycan Ordusu şərti sərhəddə bütün əməliyyat şəraitini nəzarət altında saxlayaraq hər cür təxribatın qarşısını almağa hazırdır", - deyə Ş.Ramaldanov deyib.

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

# Ermənistan dostunu əlcək kimi dəyişməyə adət edib

### Ona görə də ABŞ və Aİ güman etməsinlər ki, ermənilərin timsalında Cənubi Qafqazda özlərinə sadiq tərəfdaş tapıblar

**Hamı sülhdən danışsa da, reallıqda bu, hələ görünmür. Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen aprelin 4-də Azərbaycan Prezidentinə zəngində sülhə səy göstərdiklərini dedi. Amma ertəsi gün Brüsseldə keçirilən üçtərəfli görüşdə bu, hiss olunmadı.**



Görünən o oldu ki, ABŞ və Aİ, xüsusən Fransa yeni münaqişənin himini bərkitməyə çalışırlar. Əks halda ABŞ-nin hərbi və xüsusi xidmət orqanları ilə əməkdaşlıq edən və Vaqner stilində fəaliyyət göstərən bir sıra şirkətlər Ermənistanda təlimlərə, genişmiqyaslı militarizasiya proqramının həyata keçirilməsinə başlamazdılar. Axı Ermənistana yeni silahların, hərbi təyinatlı texnologiyaların verilməsi ciddi müharibə hazırlıqlarının aparılmasından xəbər verir. Həm də ondan xəbər verir ki, ABŞ dünyanın müxtəlif bölgələrində həyata keçirdiyi neoimperialist siyasətini indi də Cənubi Qafqaz regionunda reallaşdırmağa çalışır.

Elə bu səbəbdən ABŞ Dövlət katibi E.Blinkenin Brüssel görüşü ərəfəsi Azərbaycan Prezidenti ilə telefon danışığını azərbaycanlı ekspertlər səmimi qəbul etmədilər. Çünki Azərbaycan və Ermənistan bu gün sülhə heç vaxt olmadıqları qədər yaxın olsalar da, aprelin 5-də keçirilən ikitərəfli görüş iştirakçıların qeyri-səmimiliyinə dəlalət edir. Ekspert K.Cəfərov belə deyir: "Rusiyada yaşayan ermənilərin sayı Ermənistanda yaşayan ermənilərdən çoxdur. İrəvanın əsas iqtisadi və nəqliyyat infrastrukturlarının benefisiarı rus şirkətləridir. Ona görə də Qərbin əsas məqsədi Rusiyaya qarşı Ukraynadan sonra Ermənistanda yeni cəbhə açmaqdır. Bu məqsədlə də regionda yeni münaqişə ocağı yaratmaq, Ermənistanı Azərbaycana qarşı revanşa hazırlamaq məqsəd kimi qarşıya qoyulur". Rusiya Xarici İşlər Nazirliyinin Brüsseldə keçirilən Ermənistan-Aİ-ABŞ danışıqları ilə bağlı bəyanatında isə bildirilir ki, Qərb Ermənistanı Cənubi Qafqazda son dərəcə təhlükəli planlarının həyata keçirilməsi üçün alətə çevirmək istəyir: "Bilirik ki, Vaşinqton və Brüssel müvəqqəti vədlər altında Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından və Avrasiya İqtisadi İttifaqından çıxmasına, Rusiya hərbi bazası və sərhədçilərinin çıxarılmasına can atırlar. Biz İrəvan rəhbərliyini Qərbin onu aldatmasına və ölkədə təhlükəsizlik boşluğunun yaranmasına, iqtisadiyyatda ciddi problemlər və əhalinin xaricə axını ilə dolu olan yanlış yola yönəltməsinə imkan verməməyə çağırırıq", - deyə Rusiya XİN-in verdiyi bəyanatda bildirilir.

Qeyd edək ki, Brüsseldə Ermənistana maliyyə və informasiya dəstəyinin veriləcəyi diqqətə çatdırılsa da, təhlükəsizlik təminatı və ya hərbi yardımın göstəriləcəyi barədə bir söz deyilmədi. Əvəzində Qarabağdan könüllü köç etmiş ermənilərin Ermənistan cəmiyyətinə inteqrasiya və onların yerləşdirilməsi üçün maliyyə ayrılacağı bildirildi. Bu o deməkdir ki, artıq Aİ və ABŞ də ermənilərin Qarabağa qayıtmasının baş tutmayacağını anlayırlar. Həm də onu anlayırlar ki, bu, ermənilərin öz seçimidir, Azərbaycan heç bir azsaylı xalqın ərazisində yaşamasının əleyhinə deyil, təbii ki, dövlətimizin qanunları çərçivəsində.

Belə mürəkkəb vəziyyətdə ekspertlər hesab edirlər ki, Ermənistanın real durumuna həsəd aparmaq yersizdir. Çünki Cənubi Qafqaz regionunda heç kim Qərb təsir anklavının meydana çıxmasında maraqlı deyil. Düzdür, bu gün Ermənistan Rusiyanı qurban verməklə düşdüyü ağır durumdan çıxmağa çalışır. Rusiyanı bu vaxtadək "xristian qardaş" titulunda tac kimi başına qaldıran Ermənistan artıq "romantik qardaşlıq"dan daha çox iqtisadi cəhətdən faydalı münasibətlərə mehrini salır. Bu isə Rusiya ilə Ermənistan arasında münasibətlərin soyuyacağını qaçılmaz edir ki, onun da fəsadlarının ağır olacağı şübhəsizdir.

Amma, deyəsən, rusların köhnə erməni qardaşları bunu özlərinə dərd etmək niyyətində deyillər. Əksinə, ekspertlər belə hesab edirlər ki, Ermənistan ABŞ və Aİ-yə güvənib Rusiyanı Cənubi Qafqazdan çıxarmaq istəməklə regionda dominant qüvvəyə çevrilmək niyyətindədir. Burada ən maraqlısı, daha doğrusu, ən acınacaqlısı əsrlərboyu Rusiyaya sədaqət nümayiş etdirən ermənilərin göz qırpımında dəyişərək ruslara dirsək göstərmələridir. Ancaq, əslində, burada nə maraqlı, nə də acınacaqlı bir iş var. Sadəcə, erməni xislətidir. O xislət ki, dostlarını, tərəfdaşlarını əlcək kimi dəyişməyə xidmət edir. Ona görə də inanmırıq ki, ABŞ və Aİ Ermənistanın timsalında Cənubi Qafqazda özlərinə sadiq dost tapıblar.

*Bahadur İMANQULİYEV,*
*"Azərbaycan"*

# İŞİMİZ, GÜZƏRANIMIZ



## İnvestisiya təşviqi mexanizmi - qeyri-neft sektorunun inkişafını stimullaşdıran əsas alət

**Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra əski sovet planlı təsərrüfat sistemindən imtina edib liberal iqtisadi inkişaf yolunu seçdi. Sözsüz ki, iqtisadi kursun kəskin şəkildə dəyişməsi müəyyən problemlər də yaratdı. Lakin bu istiqamətdə aparılan düzgün iqtisadi siyasət və icra edilən iqtisadi islahatlar sonda öz müsbət nəticəsini verdi.**

İqtisadi inkişafımızın təmin edilməsində aparılan investisiya siyasəti önəmli rol oynayır. Xüsusilə müstəqilliyimizin ilk illərində xarici investisiyanın yatırılması ölkəmizə hava və su qədər vacib idi. Çünki özümüzün investisiya imkanlarımız yox idi ki, sənayenin modernləşdirilməsi üçün vəsait qoyaq. Köhnə avadanlıqlarla isə xarici bazar üçün rəqabətqabiliyyətli məhsul istehsal etmək mümkün deyildi. O üzdən ölkəyə xarici sərmayənin cəlb edilməsi vacib idi.

Ulu Öndər Heydər Əliyev bu istiqamətdə uğurlu işlərin möhkəm təməlini qoydu. Bunun ardınca Prezident İlham Əliyevin ölkədə münbit investisiya mühiti yaratmaq siyasəti böyük nailiyyət qazandı. Dövlət başçısı Azərbaycanda aparılan iqtisadi islahatların məqsədinin dünya iqtisadiyyatına inteqrasiya olduğu barədə fikrini dəfələrlə səsləndirmişdir.

Bu gün bizdə dünyanın inkişaf etmiş ölkələrindəki kimi liberal bazar iqtisadiyyatı sistemi tam bərqərar olub. Ölkə iqtisadiyyatına birbaşa xarici  investisiyaların qoyuluşu 100 milyard dolları ötüb. Bu, Azərbaycan kimi bir ölkə üçün son dərəcə böyük rəqəmdir. Ən önəmlisi isə odur ki, bu çətin anda da Azərbaycan iqtisadiyyatına xarici investisiyanın qoyuluşu davam edir. Dövlət Statistika Komitəsindən verilən məlumata görə, 2023-cü ildə Azərbaycan iqtisadiyyatına xarici ölkələr və beynəlxalq təşkilatlar tərəfindən 3 milyard 656,2 milyon manat vəsait yönəldilmişdir. Cari ildə də ölkə iqtisadiyyatına xarici sərmayə qoyuluşu davam edir. İlin ilk iki ayında xarici ölkələr və beynəlxalq təşkilatların vəsaitləri hesabına ölkə iqtisadiyyatına 493,5 milyon manat sərmayə yatırılıb.

Yeri gəlmişkən, qeyd edək ki, indiki dünya düzənində baş verən hadisələr nəticəsində xarici sərmayə cəlb etmək çox çətindir. Səbəbi aydındır - qlobal səviyyədə baş verən siyasi və hərbi gərginlik kapital qoyuluşuna mənfi təsir göstərib. Bunun üçün də 2023-cü ildə sərmayə cəlb etmək məqsədilə xarici investorların sorğuları müvafiq olaraq cavablandırılmış, onların mərkəzi icra hakimiyyəti orqanları ilə əlaqələndirilməsi, həmçinin ölkəmizdə yaradılmış biznes və investisiya mühiti haqqında məlumatların təqdim edilməsi istiqamətində müvafiq işlər görülmüş, mütəmadi olaraq şirkətlərə "sonradan qayğı" xidmətləri göstərilmişdir. Eyni zamanda işğaldan azad edilmiş ərazilərdə mövcud investisiya imkanlarından yararlanması məqsədilə 2023-cü il ərzində yerli və xarici şirkətlərin müraciətlərinə baxılmış, görüşlər keçirilərək təhlillər aparılmışdır.

Bunlardan savayı, xarici sərmayədarlarda inam yaratmaq üçün müxtəlif layihələr hazırlanmışdır. Onlardan biri ölkəmizdə yaradılmış investisiya mühiti ilə bağlı potensial investorların ətraflı məlumat əldə etmələri üçün investisiya bələdçisinin hazırlanmasıdır. Bələdçidə potensial sektorlar, iqtisadi göstəricilər, nəqliyyat marşrutları, qanunvericilik, xüsusən investorlar üçün güzəşt və imtiyazlar, eləcə də onlara dəstək ola biləcək aidiyyəti dövlət qurumları və  mexanizmləri barədə məlumatlar əks olunmuşdur. Eyni zamanda "İnvestisiya fəaliyyəti haqqında" qanunun icrası ilə bağlı investisiya fəaliyyətinin həyata keçirilməsinə dair investorlara göstərilən xidmətlərin rəqəmsallaşdırılması və "bir pəncərə" prinsipi əsasında xidmət göstərilməsi ilə bağlı təkliflər hazırlanmışdır.

Azərbaycanda qeyri-neft sektorunun inkişafı üçün böyük potensial mövcuddur və bu sahəyə xarici sərmayənin cəlb edilməsi vacibdir. Bununla bağlı 2023-cü ildə qeyri-neft sektorunun müxtəlif istiqamətlərinə xarici investisiyaların cəlbi, biznes və investisiya mühirinin daha da optimallaşdırılması, biznes dairələri arasında ikitərəfli əlaqələrin qurulması üçün Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi, Tatarıstanın Kazan, Özbəkistanın Daşkənd şəhərlərində investorlarla ikitərəfli görüşlər keçirilmişdir.

İqtisadiyyatın idarəedilməsi mexanizmi dinamik olaraq dəyişir. Yeni şəraitdə yeni tələblərə uyğun qanunvericilik bazasında dəyişikliklər edilməsi tələb olunur. Məqsəd xarici investisiyanın ölkə iqtisadiyyatına daha çox cəlb edilməsidir. Azərbaycanda bu istiqamətdə görülən işlər beynəlxalq təşkilatlar və biznes dairələri tərəfindən yüksək qiymətləndirilir. Prezident İlham Əliyevin 2022-ci ilin 20 dekabr tarixli fərmanı ilə investisiya təşviqi mexanizminə edilmiş dəyişikliklərə əsasən, investisiya təşviqi sənədi 2023-cü il yanvarın 1-dən 3 il müddətinə sənaye məhəllələri, aqroparklar, turizm və rekreasiya zonaları, müvafiq ərazilərdə, yəni Bakı, Sumqayıt, Gəncə şəhərləri, Abşeron rayonu və işğaldan azad edilmiş ərazilər istisna olmaqla digər şəhər və rayonlarda həyata keçiriləcək layihələrə, eləcə də dövlət başçısı tərəfindən müəyyən edilən istiqamətlər üzrə reallaşdırılacaq strateji layihələrə verilir. Yeni mexanizmdə kənd təsərrüfatı və logistika istiqamətləri çıxarılmış, əvəzində tullantıların təkrar emalı fəaliyyət sahəsi əlavə olunmuş, həmçinin turizm istiqamətli fəaliyyət sahələri genişləndirilmişdir. Yəni tətbiq edilən mexanizm əsasən regionların inkişafına və investisiya potensialının artırılmasıa yönəldilmişdir.

İnvestisiya təşviqi mexanizmi nə üçün lazımdır? Bu, ölkə iqtisadiyyatına daha çox xarici və yerli investisiyanın yatırılmasına imkan yaradır. Dövlət tərəfindən edilən güzəştlər sahibkarları iqtisadiyyata daha çox sərmayə qoymağa təşviq edir. Ümumilikdə 2024-cü ilədək 483 sahibkarlıq subyektinə 584 investisiya təşviqi sənədi verilmişdir. İnvestisiya təşviqi sənədi təqdim edilmiş layihələrin reallaşması nəticəsində yerli istehsala 5,6 milyard manatdan çox investisiyanın yatırılması və 38,6 mindən çox yeni iş yerinin açılması nəzərdə tutulmuşdur. Təkcə keçən il 14 sahibkarlıq subyektinə 15 investisiya təşviqi sənədi təqdim edilmişdir. Həmin imkandan istifadə edərək yeni layihələrin reallaşması nəticəsində yerli istehsala 41,7 milyon manatadək investisiya yatırılması və 500 yeni iş yerinin açılması planlaşdırılmışdır. Eyni zamanda investisiya təşviqi sənədi almış hüquqi şəxslərə və fərdi sahibkarlara 227,8 milyon dollar dəyərində texnikanın, texnoloji avadanlıqların, həmçinin qurğuların idxalı üçün 593 təsdiqedici sənəd verilmiş, eləcə də sahibkarlar idxalda tətbiq olunan vergi və resurslardan 53 milyon dollar məbləğində güzəştlər əldə etmişlər.

Bu gün qeyri-neft sektorunda məhsul istehsalının ildən-ilə artması və ixracın yüksəlməsi yerli və xarici sahibkarlara dövlət tərəfindən edilən güzəştlər sayəsində mümkün olmuşdur. Bu istiqamətdə sahibkarlara edilən güzəştlər hesabına qarşıdakı illərdə qeyri-neft sektoru üzrə daha çox məhsul istehsal və ixrac edilməsinin şahidi olacağımız şübhəsizdir.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## Naxçıvan MR-də işsizlikdən və icbari tibbi sığorta daxilolmaları artıb

**Bu ilin yanvar-mart aylarında Naxçıvan Muxtar Respublikasında işsizlikdən sığorta haqları üzrə daxilolmalar ötən ilin eyni dövrü ilə müqayisədə 9 faiz artaraq 1 milyon manatdan çox olub.**

Bu barədə "Trend" İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə istinadən xəbər verir. Məlumata görə, həmin dövrdə icbari tibbi sığorta haqları üzrə daxilolmalar isə 28,9 faiz artıb və 7,3 milyon manatı keçib.

## "Məşğulluğa Dəstək Layihəsi" çərçivəsində növbəti təlim keçirilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Dünya Bankının maliyyə dəstəyi ilə icra olunan "Məşğulluğa Dəstək Layihəsi" çərçivəsində növbəti təlim olub.**

Təlim müraciətlərə baxılması mexanizmi ilə bağlı olub. Beynəlxalq ekspert cəlb olunmaqla keçirilən təlimdə nazirliyin və tabeliyindəki DOST Agentliyinin, Dövlət Məşğulluq Agentliyinin, "142" Çağrı mərkəzinin müraciətləri ilə işləyən əməkdaşları iştirak edib.



Müvafiq mövzuda məlumatlılığı artırmaq məqsədi daşıyan təlimdə müraciətlərin müəyyən olunmuş kateqoriyalar üzrə çeşidlənməsi, Dünya Bankının tələblərinə uyğun olaraq məlumatların təhlil olunması və s. ilə bağlı məlumatlar təlim iştirakçılarının diqqətinə çatdırılıb.

İştirakçıları maraqlandıran suallar da cavablandırılıb və qeyd edilən mexanizmin təkmilləşdirilməsinə dair müvafiq tövsiyələr verilib.

## DOST mərkəzlərində 192 min vətəndaşa xidmət göstərilib

**"142" Çağrı mərkəzi tərəfindən 403 min vətəndaş müraciəti cavablandırılıb. Bu ilin birinci rübündə DOST mərkəzlərində 192 min vətəndaşa xidmət göstərilib.**

2019-cu ilin may ayından ölkəmizdə artıq 7 DOST mərkəzi açılıb və bu mərkəzlərdə 159 sosial xidmət "bir pəncərə"dən, müasir və çevik, şəffaf mexanizmlərlə, vətəndaş məmnunluğuna uyğun təqdim edilir.

Ümumilikdə ötən dövrdə DOST mərkəzlərində 2,2 milyon vətəndaşa xidmət göstərilib. DOST xidmətlərindən vətəndaş məmnunluğu 98,2 faiz təşkil edib.

Yanvar-mart aylarında "142" Çağrı mərkəzi tərəfindən isə 403 min vətəndaş müraciəti cavablandırılıb.

## AQTA informasiya sistemlərini bütünlüklə "Hökumət buludu"na köçürüb

**İnformasiya sistemləri və ehtiyatlarını "AzInTelecom" MMC-yə məxsus "Hökumət buludu"na köçürən növbəti dövlət qurumu Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) olub.**

Agentlik "Hökumət buludu"na miqrasiya çərçivəsində "AzInTelecom" MMC-nin təqdim etdiyi Virtual server - IaaS (İnfrastructure-as-a-Service) xidmətini əldə edib. AQTA informasiya sistemlərini tam şəkildə "AzInTelecom" MMC-yə məxsus Bakı Data Mərkəzində yerləşdirməklə kritik sistemlərinin yüksək əlçatanlığını təmin edib.

Eyni zamanda agentlik məlumatların təhlükəsiz saxlanılması məqsədilə Rezervlənmə - BaaS (Backup-as-a-Service) bulud xidmətindən də yararlanıb. Bu xidmət daxilində təqdim edilən funksionallıqları daha çevik və sadə formada idarə etmələri məqsədilə "AzInTelecom" AQTA mütəxəssislərini "Veeam" platforması ilə təmin edib.

Qeyd edək ki, dövlət qurumlarının "Hökumət buludu"na miqrasiyası ilə cari İT xərcləri azalır və informasiya sistemlərinin məhsuldarlığı artır. Beləliklə, informasiya sistemlərinin təhlükəsizliyinin daha da təkmilləşdirilməsinə, sabit və dayanıqlı İT infrastrukturuna, operativ koordinasiya ilə yüksəkkeyfiyyətli servis təminatı və 24/7 monitorinq xidmətinə nail olunur.

## 3 ayda "ƏDV geri al" layihəsi çərçivəsində 43,8 milyon manat qaytarılıb

**Ölkədə "ƏDV geri al" layihəsi uğurla tətbiq edilir. 2024-cü ilin yanvar-mart ayları ərzində fiziki şəxs olan istehlakçılar tərəfindən pərakəndə ticarət, ictimai iaşə və tibb fəaliyyəti göstərən şəxslərdən alınmış mallara və göstərilən xidmətlərə görə ödənilmiş ƏDV-nin 43,8 milyon manatı geri qaytarılıb.**

Dövlət Vergi Xidmətinin yaydığı məlumata görə, 3 ay ərzində alınmış mallara görə ödənilmiş ƏDV-nin bir hissəsinin qaytarılması üçün müvafiq portalda 2,7 milyondan çox istifadəçi qeydə alınıb. Layihənin tətbiq edildiyi vaxtdan 2024-cü il aprelin 1-dək portalda qeydiyyatdan keçmiş istehlakçılara ümumilikdə 1,5 milyarddan çox kassa çeki üzrə 559,5 milyon manat ƏDV məbləği geri qaytarılıb.

"ƏDV geri al" layihəsinin reallaşdırılması nəticəsində pərakəndə ticarət, ictimai iaşə və tibb xidmətləri sahələrində nağdsız ödəmələrin xüsusi çəkisi əhəmiyyətli şəkildə yüksəlib.

# Qlobal istiləşmə nəhəng buzlaqlara qarşı

**Yer kürəsinin iqlimi daim dəyişir. Ötən əsrlər planetdə iqlim dəyişikliyi təbii hadisələrlə əlaqədar olurdu. Amma müasir dövrdə insan öz əli ilə fəlakətlərə yol açır, faciələr törədir. Bu sıçrayış  əsasən XX əsrin əvvəlindən başlayıb. Son yüz ildə meydana gələn və "istixana effekti" deyilən istilah  bəşəriyyətə olduqca mənfi təsir göstərir.  Havaya  buraxılan istixana qazları Yer kürəsini məhvə aparır.**

Yüksələn hava hərarəti Qrenlandiya, Şimal  Buzlu okean və Antarktidadakı buz örtüklərinə ərimə dərəcəsində təsir etdiyi üçün okeanların səviyyəsini artırır. Dünyanın şirin su ehtiyatının 90, planetin buzlaqlarının isə 85 faizi məhz Antarktida materikində toplanıb. Böyük və ciddi rahatsızlıq odur ki, Yer kürəsində gündən-günə əhatə və təsir dairəsi genişlənən qlobal iqlim dəyişikliyi planetimizin buzlaqlarının əriməsi təhlükəsini artırır. Həmin buzlaqlar planetimizdə hava cərəyanının tənzimlənməsində, iqlim və onun amillərinin formalaşmasında, eləcə də biosferin və ekosistemin sabitliyinin təmin olunmasında, şirin su ehtiyatının toplanmasında misilsiz, planetar və bəşəri əhəmiyyət kəsb edir. Mütəxəssislərin fikrincə, bu ərimə prosesi davam edərsə, qarşıdakı min il ərzində okeanın səviyyəsi bir neçə metr yüksələ bilər. "Aşağı emissiya ssenarisi"ndə hesablanıb ki, 2080-ci ilədək suyun səviyyəsinin 9 santimetrdən 48 santimetrədək qalxmaq ehtimalı var.

Yer kürəsinin bir çox yerində buzlaqlar həm də əsas su anbarı rolunu oynayır. Dünya əhalisinin 20 faizindən çoxu buzlaqlardan axan yay ərimə sularından içmək, kənd təsərrüfatında və su elektrik stansiyalarını idarə etmək üçün istifadə edir. Ona görə də buzlaqların nə qədər dəyişdiyini izləmək vacibdir. Dünyanın buzlaqları təkcə qütblərdə deyil, bütün en dairələrində yayılıb. Bir neçə yüz buzlaq müntəzəm olaraq yer səviyyəsində ölçülür və bu üsul onları qiymətləndirməyin ən yaxşı yolu sayılır. Amma indi buzlaqlar həm də kosmosdan müşahidə edilir ki, bu da  onların iqlim dəyişikliyinə necə reaksiya verdiyinə diqqət yetirməyin yeganə yoludur.

Hazırda dünyada 160-dan çox kosmik cihaz iqlim dəyişikliyinə nəzarət edir. İqlim dəyişikliyi ilə bağlı məlumatların 60 faizdən çoxu məhz kosmosdan alınır. Bu sırada Azərbaycanın da yeri var. Ölkəmiz iqlim dəyişikliklərinin izlənilməsində kosmosdan, kosmik texnologiyalardan istifadə edir. Azərbaycan Respublikasının Kosmik Agentliyi ("Azərkosmos") iqlim dəyişikliyinin kosmosdan ölçülməsi ilə bağlı ilk dəfə xüsusi elektron platforma hazırlayıb. Bu günlər "Azərkosmos"da  keçirilən "İqlim dəyişikliyinə kosmik baxış" adlı tədbirdə səslənən "kosmik texnologiyalar iqlim dəyişikliyinin monitorinqinin ən mühüm vasitələrindən birinə çevrilib" fikri ətrafında aparılan müzakirələrdə  vurğulanıb ki, hər kəs artıq iqlim dəyişikliyinin şahidi olur. Bunun üçün Xəzərin sahilinə getmək kifayətdir.

"Azərkosmos" idarə heyətinin sədri Saməddin Əsədov deyib: "Azərbaycanda iqlim dəyişikliyi ilə bağlı elektron platforma, "Climate Change from Space" istifadəyə verilib. Yeni platforma iki dildə olmaqla 5 bölmədən ibarətdir. Platformada göstərilən məlumatlar iqlim dəyişikliyi barədə məlumatlılıq səviyyəsinin artmasına töhfə verəcək. Burada 21 milyon kvadratmetr ərazinin son 30 ildə plan hesabatı artıq kosmik texnologiyalar vasitəsilə əldə edilib. Qeyd etmək istəyirəm ki, elektron platforma üçün əsas informasiya mənbəyi "Azersky-2" peyki olub".




Sədr onu da diqqətə çatdırıb ki, noyabrda Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29)  bu  elektron platforma  tədbirin  uğuruna yardım edəcəyinə ümid edir.

Tədbirin iqlim, su ehtiyatları, Xəzər dənizi ilə bağlı araşdırma aparan tədqiqatçılar, alimlər, gənclər, tələbələr üçün təhlil, statistika, proqnozlaşdırma ilə bağlı önəmli vasitə olacağına əminliyini bildirən sədr bu əminliyin "Azərkosmos"un  kosmik cihazlarının verdiyi proqnozlardan irəli gəldiyini deyib.

Bu gün alimlər  kosmik cihazlardan başqa, dünya buzlaqlarının vəziyyətini özündə əks etdirən ən yaxşı peyk xəritəsini əldə ediblər. Ötən il Avropanın "Cryosat" kosmik gəmisi Yerdəki 200 minə yaxın buzlağı izləyib və onların iqlim dəyişikliyi səbəbindən 10 il ərzində 2 milyard 720 milyon ton buz itirdiyini müəyyən edib. Bu, 10 il ərzində onların ümumi kütləsinin 2 faizinin itirilməsi deməkdir. Məlumat üçün bildirək ki, "Cryosat" Avropa Kosmik Agentliyinin Yer müşahidəçisidir. Bu kosmik gəmi planetin səthi boyunca hündürlüklərdəki dəyişiklikləri, xüsusən də buz sahələrinin hündürlüyündə baş verən prosesləri izləmək üçün mikrodalğalı impulslar göndərən "radar altimetri" adlı bir aləti daşıyır. Həmin  alət Antarktida və Qrenlandiyanın daxili hissəsindəki incə dalğalanmaları izləyir. Onu da qeyd edək ki, hazırda "Cryosat" dizayn müddətindən  çox istifadə edilmiş köhnə kosmik gəmidir. Elm adamları ondan daha bir neçə il də məlumat almağa ümid etsələr də, günün birində fəaliyyətini dayandıracağı ehtimalını da qəbul edirlər. Bu səbəbdən Avropa İttifaqı hazırda "Cristal" adlı uzunmüddətli peyk seriyasını hazırlamağı planlaşdırır.

ABŞ-nin Milli Kosmos Agentliyinin (NASA) araşdırmasına görə, iqlim dəyişikliyi planetin rəngini də dəyişməyə başlayıb. Son 20 ildə okeanların yarısından çoxu iqlim dəyişikliyinin gətirdiyi istiləşmə səbəbindən mavi rəngdən yaşıl rəngə keçib. Mütəxəssislər bundan çox rahatsızdırlar. Çünki bu rəng dəyişikliyi ekosistemin sürətlə korlanmasından xəbər verir.

*Züleyxa  ƏLİYEVA,*
*"Azərbaycan"*





# Tarixin izi ilə





Danışan tarix

# Əsrlərin yadigarı

**Əsrlər boyu müxtəlif mədəniyyətlərin, dini inancların ahəngdarlıqla qovuşaraq mükəmməl harmoniya yaratdığı əfsanəvi məkan olan İçərişəhər tariximizin daş yaddaşıdır. Bura çoxəsrlik mədəniyyətimizin rəmzlərindən biri və ölkəmizin Orta əsrlərdə yüksək səviyyədə inkişaf etmiş şəhərsalma sənətinin misilsiz yadigarıdır.**



Unikal məkandakı Qız qalası, Şirvanşahlar Saray Kompleksi, məscidlər, karvansaralar və digər tarixi abidələr Azərbaycan memarlığının parlaq nümunələridir.

Tariximizə xüsusi həssaslıq göstərən Ulu Öndər Heydər Əliyev bu muzey-şəhərə hər zaman qayğı ilə yanaşırdı. İçərişəhərin mənəvi dünyamızdakı yeri və rolunu düzgün qiymətləndirərək onun qorunması və mühafizəsi üçün əhəmiyyətli addımlar atırdı. Təsadüfi deyil ki, Ulu Öndərin siyasi iradəsi ilə İçərişəhər hələ 1977-ci ildə Tarix-Memarlıq Qoruğu statusu almışdı. 1985-ci ildə isə Dövlət Tarix-Memarlıq Qoruğu elan edilmişdi.

## Azərbaycan xalqının milli sərvəti

İçərişəhər keçmişə sevgimizin simvolu, tarixi yaddaşımızın canlı salnaməsidir. Doğma Bakının ən dəyərli incisidir. Prezident İlham Əliyev paytaxtımızın nadir, özünəməxsus tarixi memarlıq simasının olduğunu dəfələrlə vurğulamışdır. "Bakının memarlığı bizim milli sərvətimizdir" deyən dövlət başçısı hər bir tarixi binaya, tikiliyə böyük diqqət və qayğı ilə yanaşdığını bildirmişdir. Açıq səma altında muzey kimi fəaliyyət göstərən İçərişəhərin isə unikallığının qorunub saxlanılması üçün fərman və sərəncamlar imzalamışdır. Bu gözəl məkan 22 hektar ərazidə amfiteatr üslubunda inşa edilmişdir. Onun unikallığı həm də şəhərin daxili məhəlli strukturlarındadır. Qazıntılar zamanı eramızdan əvvəl III-I əsrlərə aid küpə, eramızdan əvvəl IV-I əsrlərə aid saxsı qab qırıqları, dəmir ox ucluqları, Dəmir dövrünə aid gildən qadın fiquru və Antik dövrə aid sütun altlıqları tapılmışdır. Bu da tədqiqatçıların araşdırmalarına görə, İçərişəhərin şəhər kimi formalaşma dövrünü ən geci antik dövrlə eyniləşdirməyə imkan vermişdir.

Bakı liman şəhəri kimi mövcud idi. İçərişəhər ərazisində sənətkarlıq və ticarət geniş inkişaf etmişdi. Güclü zəlzələ nəticəsində Şamaxı şəhərinin dağılmasından sonra Azərbaycanın şimal-şərqində yaranmış ilkin feodal dövləti olan Şirvanşahlar dövləti Bakıya köçmüşdür. Bu köçürmədən sonra İçərişəhərin həyatında dönüş dövrü başlamışdır. Şirvanşahların hakimiyyəti dövründə Bakıda çoxlu inşaat işləri həyata keçirilmiş və şəhər inkişaf etmişdir. Qala divarları inşa edilməklə şəhərin müdafiə sistemi gücləndirilmişdir. XV əsrdə Şirvanşahların iqamətgahının tikintisinin başa çatmasından sonra şəhərin ictimai-siyasi və mədəni mərkəz kimi rolu xeyli artmışdır. Ümumilikdə tədqiqatçıların yazdıqlarına görə, Orta əsrlər Bakısının ən yüksək inkişaf mərhələsi XV əsrə düşür.

XIX əsrin sonları - XX əsrin əvvəlləri Bakıda neft bumunun yaşanmasından sonra isə şəhər genişlənir, insanlar İçərişəhər divarlarından kənarda da sıx məskunlaşmağa başlayır. Məhz "İçərişəhər" anlayışı da bayır şəhərin formalaşmasından sonra yaranır. Neft gəlirlərindən zənginləşən Bakı milyonçuları XX əsrin əvvəllərində bir-birinin bəhsinə qala divarlarından kənarda gözəl binaların inşasına başlayırlar. Bu tikinti işləri çox təəssüf ki, qala divarlarının birinci cərgəsinin sökülməsi və daşlarının satılmasından sonra daha böyük vüsət alır. Bundan sonra qədim Bakının görünüşü də dəyişir. XIX əsrin sonlarında və XX əsrin əvvəllərində Bayırşəhərdə barokko, qotik, klassik, neoklassik memarlıq üslublarını əks etdirən bir çox avropasayağı bina tikilir və Bakı böyüməyə başlayır.

Bakı milyonçuları bir tərəfdən şəhəri genişləndirib gözəlləşdirir, digər tərəfdən isə özləri də hiss etmədən qədim şəhərin böyük tarixinə, zəngin mədəniyyətinə xələl gətirir, laqeydlik göstərirdilər. Əslində, İçərişəhər Bakının qəlbində keçmişi əks etdirən mədəni irsimizin yadigarı idi. İçərişəhərə laqeyd münasibət sovet dövründə də müəyyən qədər davam edir və burada təbii ki, erməni hiyləgərliyi, tariximizə qarşı bu millətin düşmənçiliyi az rol oynamır.

1952-1957-ci illərdə İçərişəhərin qala divarları ilk dəfə bərpa edilir. Ötən əsrin 70-80-ci illərində bu tarixi məkanın statusu ilə bağlı müvafiq addımlar atılır.

## Milli dəyərlərə sevgi

Uzun əsrləri adlayan sənət incilərimiz, tarixi abidələrimiz həssas münasibətə, qayğıya möhtacdır. Onların dağıdılıb tar-mar edilməsinə göz yumsan, zamanla məhv olub sıradan çıxacaqlar. Amma qayğı göstərsən, qəlbinin sevgisini versən, əsrlərin o üzündən gələn bütün gözəlliklərini önündə sərgiləyəcəklər. Bu mənada Prezident İlham Əliyevin diqqət və qayğısı, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın himayəsi İçərişəhərə yeni həyat verdi. Azərbaycan Prezidentinin İçərişəhərin qorunması məqsədini əsas tutan 10 fevral 2005-ci il tarixli sərəncamı açıq səma altındakı bu muzey-şəhəri layiq olduğu görkəminə, abadlığına, səliqə-sahmanına gətirdi. İçərişəhər tarixlə müasirliyin harmoniyasını, milli-mənəvi dəyərlərimizin ruhunu özündə əks etdirən möhtəşəm mənzərə kimi bütün gözəlliklərini açıb göstərdi.

Dövlət rəhbərinin müvafiq sərəncamı ilə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi yaradıldı. Belə bir qurumun yaradılmasında əsas məqsəd qədim şəhərdə abidələrin və bütövlükdə memarlıq-şəhərsalma kompleksinin lazımi səviyyədə qorunub saxlanmasının və gələcək nəsillərə çatdırılması üçün özündə mərkəzi və yerli icra hakimiyyəti orqanlarının funksiya və səlahiyyətlərini birləşdirən unikal idarəetmə sisteminin təşkil olunması idi. Və bu niyyət qısa zamanda özünü doğrultdu. Qoruğun mədəni turizm potensialının artırılması məqsədilə onun mədəniyyət və incəsənət mərkəzinə çevrilməsi istiqamətində çoxsaylı tədbirlər görüldü. Burada yeni muzey ekspozisiyaları açıldı. Ənənəvi incəsənət və sənətkarlığın inkişafının dəstəklənməsi istiqamətində addımlar atıldı. 2019-cu ilin mayında Prezident İlham Əliyev tərəfindən İçərişəhərlə bağlı fərman imzalandı. Həmin fərmanda mədəni irs abidələrinin mühafizə zonalarını müəyyən etmək, qorumaq, konservasiya işləri, mədəni sərvətlərin qabaqlayıcı mühafizə dərəcəsinin tətbiqi və bir çox məsələ öz əksini tapdı.

Hər bir azərbaycanlının qəlbində qürur hissi doğuran bu "muzey-şəhər" ölkəmizin UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilmiş ilk tarixi abidəsidir. İçərişəhərin Qız qalası və Şirvanşahlar sarayı kompleksi ilə birgə UNESCO-nun 2000-ci ildə keçirilmiş Ümumdünya Mədəni İrs Komitəsinin 24-cü sessiyasında Ümumdünya İrs Siyahısına salınması onun ümumbəşəri dəyər kimi qəbul edilməsinin və layiqincə qiymətləndirilməsinin göstəricisi oldu.

## Hər parçası bir tarixdir

İçərişəhərdə yerləşən məşhur memarlıq abidələri - Qız qalası, Qala divarları, Şirvanşahlar Saray Kompleksi, Məhəmməd məscidi, Multanı, Buxara və kiçik karvansaralar, məscidlər, hamamlar, muzeylər və digər memarlıq abidələri öz orijinallığı və təkrarolunmaz gözəlliyi ilə bəşər mədəniyyəti inciləri sırasında xüsusi yer tutur.

İçərişəhərdə mövcud olan tarixi abidələr dünya, ölkə və yerli əhəmiyyətli olmaqla 3 qismə bölünür. Qız qalası, Şirvanşahlar sarayı, Məhəmməd məscidi kimi abidələr dünya əhəmiyyətli qrupa aiddir. Ölkə əhəmiyyətli abidələr isə qismən muzeyləşdirilərək funksiyasına uyğun müstəqil obyektə çevrilir. Buna karvansaraları, məscidləri və hamamları nümunə göstərə bilərik. Yerli əhəmiyyətli abidələrdə isə qarışıq muzeyləşdirmə aparılaraq, müxtəlif növ ekspozisiya kompleksləri cəmləşdirilir. Bunu XIX - XX əsrin yaşayış binalarında görmək olar.

İçərişəhərin özəlliyi həm də bundadır ki, burada tarix bitmir, əksinə, davam edir. Keçmiş, bu gün və gələcək bu məkanda qovuşur. İçərişəhərdəki yaşayış evlərində indi də sakinlər yaşayır və bu tarixi məkanın hər biri misilsiz sərvət qədər qiymətli olan abidələri kimi adət-ənənələri, həyat və məişət ruhu da nəsillərdən-nəsillərə ötürülür. Əsrlər əvvəl olduğu kimi, bu gün də İçərişəhərdə dükan-bazar, Azərbaycan mətbəxinin unudulmaz dadını qoruyan ictimai-iaşə məkanları, sənətkarlıq köşkləri və s. fəaliyyət göstərir. Bəzən insanlar unudurlar ki, tarixi məkandadırlar və hər gün XII, XV, XVII əsrlərin abidələri ilə ünsiyyətdə olurlar. Bu məkan canlı orqanizm kimi öz təbii halında əsrlərdən-əsrlərə qucaq açır.

İçərişəhərin əsrarəngiz ruhunu şəhərimizin qonaqlarına göstərmək üçün burada mütəmadi kütləvi tədbirlər, maraqlı festivallar keçirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva tez-tez İçərişəhərə baş çəkərək burada aparılan işləri birbaşa nəzarətdə saxlayırlar. Yerli sakinlərlə görüşür, onların istək və arzularını dinləyirlər.

Bura ruhumuzun şəhəridir. Bakının qəlbində keçmişi əks etdirən mədəni irsimizin yadigarıdır.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

Abidələrimiz

# Qədim Nərgiztəpə həm də qəhrəmanlıq nişanəsidir

**Xocavənd rayonu ərazisində yerləşən Nərgiztəpə qədim yaşayış məskənlərimizdən biridir. O, tariximizin bir sıra mərhələlərinə şahidlik edib. Tədqiqatçıların qənaətincə, Ağdam rayonu ərazisindəki Üzərliktəpə və Naxçıvandakı Kültəpə ilə eyniyyət təşkil edən Nərgiztəpə yaşayış yeri erkən şəhər mədəniyyətinin ilkin nümunələrindəndir. Odur ki, Nərgiztəpə ərazisində həyata keçirilən arxeoloji tədqiqatlar, üzə çıxan nümunələr qədim tariximizin mərhələli şəkildə öyrənilməsi baxımından böyük əhəmiyyət daşıyır.**



Nərgiztəpə yaşayış məskənində aparılan tədqiqatlar zamanı Orta Tunc, Antik dövrlərə və Orta əsrlərə aid üç mədəni təbəqə aşkar edilib. Arxeoloqlar tədqiqatlara əsaslanaraq Nərgiztəpə ərazisində Orta Tunc dövründən başlayaraq mədəniyyətlərin bir-birini ardıcıllıqla əvəz etdiyini göstərdiyini bildiriblər.

Orta əsrlərə aid üst mədəni təbəqədə şirli və şirsiz saxsı qab nümunələrinə, daşdan əmək alətlərinə, ocaq yerlərinə və güclü yanğın izi olan zolaqlara rast gəlinib. Qalınlığı iki metrdən çox antik təbəqə həm memarlığına, həm də artefaktların rəngarəngliyinə görə olduqca zəngindir. 2,5 metr dərinlikdən aşkarlanan iri daşlardan və möhrədən ibarət müdafiə divarları da Nərgiztəpədə diqqət çəkən ən maraqlı, eyni zamanda da əhəmiyyətli tapıntılardandır.

Tədqiqatçılar Nərgiztəpə ətrafındakı qəbiristanlıqların XI-XIV və XVI-XVIII əsrlərə aid olduğunu müəyyənləşdiriblər. Qəbirüstü daşların üzərinə qazıma üsulu ilə ox, kaman və başqa işarələrdən, damğalardan ibarət naxışlar həkk edilib. Diqqəti çəkən məqamlardan biri də qəbirlərin üstündə, həmçinin ətrafdakı iri yumru daşlardır. "Kitabi-Dədə Qorqud" dastanlarında təsvir olunan hadisələrin bəzilərinin, xüsusilə Qaraca Çobanla bağlı olan əhvalatların həmin ərazilərdə baş verdiyi rəvayətlərdə əksini tapıb. Ancaq tədqiqatçıların üzə çıxardığı faktlarda məlum olub ki, Nərgiztəpə bir sıra tarixi həqiqətlərin üzərinə işıq salıb.

Qorqudşünas alimlərin araşdırmalarına görə, "Kitabi-Dədə Qorqud" dastanında bəhs edilən hadisələr, əsərin qəhrəmanları, işlənən ifadələr mifik düşüncə məhsulu olmaqdan çox uzaqdır. Məlumdur ki, ərazilərimizdə "Kitabi-Dədə Qorqud" dastanının qəhrəmanlarının izləri qalmaqdadır. Onlardan biri də Xocavənd rayonundakı Nərgiztəpədir. Belə ki, Nərgiztəpə yüksəkliyi dastan qəhrəmanı Qaraca Çobanın oylağı olduğu bildirilir. Xalqın dastanda bəhs olunan real qəhrəmanının məzarı da məhz Nərgiztəpədədir.

Ərazidə əkin-biçin işləri aparılarkən, arx və xəndəklər qazılarkən yeni-yeni abidələr aşkar olunur. Bir dəfə də traktorla Nərgiztəpənin ətrafında xəndək qazılarkən insan sümükləri, ağ tufdan yastı daş lövhələr, müxtəlif saxsı qab nümunələri, sədəfdən uzunsov düzbucaqlı şəklində düzəldilmiş muncuq üzə çıxıb. Arxeoloqlar tapılan qabların oxşarlarına Azərbaycanın Antik dövr, həmçinin Erkən Orta əsr abidələrində də rast gəlindiyini qeyd ediblər. Mütəxəssislər tapıntılara əsaslanaraq təsdiqləyiblər ki, daş örtüklü torpaq qəbirlər Antik dövr və ya Erkən Orta əsrlərin bütpərəst dini ayinləri, dəfn adətləri ilə bağlıdır.

Nərgiztəpədə xalqımızın təkcə uzaq deyil, yaxın tarixinin də qəhrəmanlıq nişanələri var. 1990-cı illərdə Azərbaycanın növbəti ərazilərini işğal etmək üçün münaqişə yaradan və müharibə alovunu körükləyən təcavüzkar ermənilər buraya da göz dikiblər. 1993-cü il aprelin 17-də Xocavəndin yaxınlığındakı alınmaz qala olan qədim Nərgiztəpə uğrunda döyüş olub. Dəfələrlə həmlə etdikdən, alınıb-verildikdən sonra, nəhayət, Azərbaycanın qəhrəman övladları Xocavənd rayonunun Nərgiztəpə ərazisini işğalçıların əlindən ala biliblər.

2011-ci ildə Nərgiztəpə yüksəkliyində Vətən uğrunda canından keçmiş şəhidlərin xatirəsi şərəfinə abidə kompleksi yaradıldı, Azərbaycan bayrağı ucaldıldı.

Ermənistan silahlı qüvvələri 2017-ci il fevralın 24-dən 25-nə keçən gecə böyük strateji əhəmiyyət daşıyan Nərgiztəpəni işğal etmək üçün hücuma keçdilər. Ancaq Azərbaycanın Silahlı Qüvvələri hərbi əməliyyat zamanı düşmənin atəş mövqelərinə və cəmləşmə nöqtələrinə qarşı müvafiq cavab tədbirləri həyata keçirdilər.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*



## Şah məscidi

İçərişəhərdə yerləşən Şah məscidi 1441-1442-ci illərdə Şirvanşah I Xəlilullahın sifarişi ilə inşa edilmişdir. Bu barədə məscidin minarəsində yazılmış kitabədə məlumat verilir: "Bu minarədə kitabə yazmaq haqqında əzəmətli sultan Xəlilullahın özü hökm vermişdir. Allah onun dövranını, hökmünü və qüdrətini artırsın". Ucu yüngülvari sivrilmiş iki günbəzlə tamamlanmış binanın prizmalı həcminin sabitliyi binanın şimal-şərq küncündə yüksələn qamətli minarə ilə kölgələndirilmişdir. Məscid böyük ibadətgah zalından, qadınlar üçün nəzərdə tutulmuş kiçik zaldan və bir neçə kiçik xidməti otaqdan ibarətdir. 1723-cü ildə I Pyotrun qoşunlarının Bakını dənizdən top atəşinə tutması zamanı Saray məscidinin şimal-şərq fasadı ziyan çəkmişdir. 1747-ci ildə Bakıda olmuş doktor P.Kuk yazır: "...bu şəhərdə yonulmuş möhkəm daşlardan tikilmiş zəngin saray vardır. Biz onu 1723-cü ildə rus mərmiləri tərəfindən dağıdılmış vəziyyətdə tapdıq".

Şah məscidinin minarəsi 31 mart 1918-ci il hadisələri zamanı da zədələnmişdir.

## Keyqubad məscidi



*Şirvan hakimlərinin iqamətgahı olan "Şirvanşahlar Saray Ansamblı"nın ən diqqətçəkən tikililərindən biri də Keyqubad məscidi idi.*

Dərviş türbəsi yanında ona bitişik bir məscid-mədrəsə binası olmuşdur. Türbə məscidin cənub hissəsində yerləşir. O, düzbucaqlı ibadət zalından və onun önündəki kiçik dəhlizdən ibarətdir. Vaxtilə zalın mərkəzində günbəzi saxlayan 4 sütun var imiş. Məsciddə Bakuvinin tədris və ibadət etməsi barədə A.Bakıxanov yazırdı: "Onun ibadət etdiyi hücrə, işlədiyi məktəb və qəbri orada - məsciddədir".

Tədqiqatçı S.Aşurbəylinin yazdığına görə, Keyqubad Şeyx İbrahimin babası idi. Şirvanşah Keyqubad 1317-1343-cü illərdə hakimiyyətdə olmuşdur. Hazırda Şirvanşahlar sarayının aşağı həyətinin cənub hissəsində Keyqubad məscidindən sadəcə bünövrə qalıqları və bir neçə tağ salamat qalmışdır.

## Qobustan qayaları - daş yaddaşımız





*Qobustan qayaları təkcə daşların altında deyil, üstündə də qədim və zəngin tarix yatdığının bariz nümunəsidir. Tariximizin daş yaddaşı adlandırılan bu qayaüstü təsvirlərdə nələr yoxdur?*

Sivilizasiyanın ən qədim mərkəzlərindən olan daş kitabələr min illər əvvəl yaşamış babalarımızın həyat tərzi, məişəti, məşğuliyyəti, mədəniyyəti, incəsənəti, adət-ənənələrindən soraq verir. Atlı, eləcə də piyadaların ov səhnələri, döyüş süjetləri, kollektiv əmək, əkin-biçin və qadınların ocaq başında təsvir olunduğu rəsmlər…Müasir "Yallı" xalq rəqsini xatırladan tək və qrup şəklində mərasim rəqs təsvirləri... Yerə döşənmiş daşların sirri hələ indiyədək heç kəsə məlum deyil.

Bəlkə də ibtidai insanın dünya ilə ilk təmasının başlandığı və sivilizasiyanın beşiyi hesab olunan yerlərdən biridir. Açıq səma altındakı muzeydə qayaüstü rəsmlər, təsvirlər, dünyanın ən qədim təqvimi, "Günəş saatı", "Qavaldaşı" və sirlərlə dolu dünya bura qədəm basan hər kəsi heyrətləndirir…

Dünyamiqyaslı tarixi abidə olan Qobustan qayaları AZƏRTAC-ın fotomüxbiri Aydın Oqtayoğlunu da heyrətləndirib və o öz heyrətini kameranın yaddaşına köçürüb.

Baxdıqca heyrətlənməmək, heyrətləndikcə xəyalən uzaq illərin arxasına baş vurmamaq, tarixi keçmişimizi, əcdadlarımızı xatırlamamaq və qürur duymamaq mümkün deyil. Bu, bizim keçmişimizi, tariximizi, milli-mədəniyyətimizi bu günə daşıyan və dünyanın mədəniyyət xəzinəsinə daxil olan daş yaddaşımızdır.

7 Aprel Ümumdünya Sağlamlıq Günüdür

# Əsas məqsəd insanların sağlamlığı, bəşəriyyətin xilasıdır

**Sağlamlıq həm dünya dövlətləri, həm də insanlar üçün çox vacibdir. Ona görə də əsrlərboyu dahi insanlar, böyük mütəfəkkirlər müxtəlif vasitələrlə bəşəriyyətin sağlamlığı üçün çalışıblar. Çalışıblar ki, insanları xəstəliklərdən, bu xəstəlikləri törədən infeksiyalardan qorusunlar. 76 il əvvəl, 1948-ci il aprelin 7-də Ümumdünya Səhiyyə Təşkilatının yaradılmasında da başlıca məqsəd insanların sağlamlığının qayğısına qalmaq olub. Həmin tarixdə Birləşmiş Millətlər Təşkilatının ən mühüm qurumlarından biri olan Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Nizamnaməsi qüvvəyə minib.**



1950-ci ildən hər il aprelin 7-si Ümumdünya Sağlamlıq Günü kimi qeyd edilir. Bu günü keçirməkdə məqsəd dünyanın bütün ölkələrinin dövlət və hökumət rəhbərlərinin, səhiyyə sisteminin, ictimaiyyətinin, özəl sektorun, qeyri-hökumət təşkilatlarının, kütləvi informasiya vasitələrinin diqqətini insanların qorunmasına, gələcək nəslin sağlam və gümrah böyüməsi kimi bəşəri bir amilə yönəltməkdir.

Bu günün keçirilməsində diqqətçəkən məqam ondan ibarətdir ki, hər dəfə insan sağlamlığına problem yaradan məsələlər xüsusi olaraq qabardılır və həmin problem Ümumdünya Sağlamlıq Gününün əsas gündəmi kimi tövsiyə edilir. Ümumdünya Sağlamlıq Gününün keçirilməsi yer üzünün bütün insanlarının sağlamlığının qayğısına qalmaq üçün düşünülüb. Əslində, bu əlamətdar gün öz rifahının, sağlam bədəninin və güclü ruhunun qayğısına qalan hər kəs üçün əlamətdar bayramdır. Ona görə ki, bir neçə onilliklər əvvəl insanlar indi asanlıqla müalicə olunan və çətinlik yaratmayan xəstəliklərdən vəfat edirdilər. Amma indi Ümumdünya Sağlamlıq Təşkilatı insanlara ölüm gətirən bir çox xəstəliklərin qarşısının alınması istiqamətində mühüm addımlar atır, qabaqlayıcı tədbirlər görür, geniş maarifləndirici işlər aparır.

Ümumdünya Sağlamlıq Günü hər il xüsusi şüarlar altında keçirilir. Ötən il günün şüarı "Hamı üçün sağlamlıq" idi. Göründüyü kimi, təşkilat insanlara fərq qoymur. Yer üzünün bütün sakinlərinin sağlamlığı keşiyində dayanır. Qeyd olunan bu prinsip Ümumdünya Səhiyyə Təşkilatının Əsas Qanununda təsbit edilib. Təyin olunmuş həmin gün tibb müəssisələrində müvafiq tədbirlər keçirilir. Hər il aprelin 7-si dünya ictimaiyyətinin diqqətini qlobal sağlamlıq üçün böyük əhəmiyyət kəsb edən hər hansı mövzuya yönəltmək olduqca mühüm bir imkandır.

Bu günün keçirilməsinin qayəsi ondan ibarətdir ki, hər birimiz özümüzün və yaxınlarımızın sağlamlığı üçün məsuliyyət daşımağı öyrənməliyik. Zərərli vərdişlər, oturaq həyat tərzi, qeyri-sağlam qidalanma və insanın psixi sağlamlığına diqqət yetirilməməsi ağır xroniki xəstəliklərin və ölümün əsas səbəbidir. Həkimlərin tələb və məsləhətlərinə məhəl qoymamaq yalnız xəstəliklərin gedişatını ağırlaşdırır və tibbin kömək etməkdə aciz qalması ilə tamamlanır. Ona görə də Ümumdünya Sağlamlıq Günündə əhali arasında sağlam həyat tərzi barədə maarifləndirmə tədbirləri həyata keçirilir. ÜST-nin verdiyi tərifə görə, sağlamlıq - sadəcə, fiziki qüsurların və xəstəliklərin olması deyil, sosial, fiziki və psixoloji rifahın vəhdətidir.

1948-ci il aprelin 7-dən dünyanın 194 ölkəsində, o cümlədən Azərbaycanda da Ümumdünya Sağlamlıq Günü keçirilir. Azərbaycan Respublikası 2 oktyabr 1992-ci ildən Ümumdünya Səhiyyə Təşkilatına üzv qəbul olunmuşdur. Elə həmin ildən də Azərbaycanın ÜST-lə sıx əməkdaşlığı mövcuddur. Ölkəmizin nümayəndə heyətləri müntəzəm olaraq Ümumdünya Səhiyyə Təşkilatının iclaslarında iştirak edir, əməkdaşlığa yeni töhfələr verir. ÜST-nin ölkəmizdə nümayəndəliyi də fəaliyyət göstərir.

Ümumdünya Sağlamlıq Təşkilatı yeni növ koronavirus (COVID-19) pandemiyası ilə mübarizədə çox mühüm işlər gördü, insanların sağlamlığı üçün vaxtlı-vaxtında zəruri tədbirlər həyata keçirdi. Pandemiyanın davam etdiyi günlərdə təşkilatın mütəxəssisləri müntəzəm olaraq dünya əhalisinə maarifləndirici məlumatlar ötürdü. Bundan başqa, təşkilatın nümayəndələri ayrı-ayrı ölkələrə səfərlər edib, virusla mübarizə aparmaqda yerli həkimlərə kömək göstərirdilər. Həmçinin ÜST-nin xətti ilə, demək olar ki, üzv dövlətlərin hamısına zəruri tibbi avadanlıq və texniki vasitələr göndərilirdi. Pandemiyanın qarşısının alınmasında ÜST ilk növbədə insanların peyvənd olunması üçün vaksin hazırlanması işini də sürətləndirdi. Göstərilən birgə səylər nəticəsində tezliklə vaksin hazırlandı. Aparılan mübarizə müsbət nəticələr verdi. İnsanlar peyvənd olunduqdan sonra pandemiyanın artım tempi zəiflədi. Getdikcə yer üzünün insanları onlara ölüm gətirən xəstəliklərdən xilas olmağa başladılar. Beynəlxalq Səhiyyə Təşkilatı bu gün yenə də fəaliyyətini uğurla davam etdirir, insanların sağlamlığı naminə zəruri addımlar atır. Səhiyyə xidmətlərinin əhatə dairəsinin genişləndirilməsi, xəstəliklərin düzgün müalicəsinin aparılması 2030-cu ilə qədər təşkilatın qarşısında duran əsas məsələlərdən biridir.

Ümumdünya Sağlamlıq Gününün keçirilməsinin məqsədləri sırasına sağlamlıq qaydalarına düzgün əməl olunması, səhiyyə məsələlərinin həllində dövlət orqanlarına kömək edilməsi, həkimlərin peşəkarlığının artırılması, düzgün qidalanma, idmanın və normal həyat tərzinin təbliği, gənclər arasında sağlam vərdişlərin yayılması, yaşlılara və sağlamlıq imkanları məhdud olanlara güzəştli şəraitin yaradılması, tütünçəkmə, alkoqollu içkilər və narkotik maddələrin zərəri, profilaktik prosedurların təyini və s. kimi məsələlər daxildir. Azərbaycan dövləti də bu istiqamətlərdə əhəmiyyətli tədbirlər görür, vətəndaşlarının sağlamlıqlarını qorumaq üçün proqram, qanun və qərarlar qəbul edir . Bu günün bütün dünyada keçirilməsi sağlamlığın və səhiyyənin problemlərinə yönələn və planetin hər bir sakininin sağlamlığının qorunması və əmin-amanlığının təmin edilməsi üçün birgə fəaliyyət göstərməyə xidmət edən çox mühüm tədbirdir. Əsas amal insanların sağlamlığı və bəşəriyyətin xilasıdır.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***


OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" *qəzetinə*

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*





# Gələcəyin dünya və Avropa çempionu

**Yeniyetmə cüdoçu Ayxan Həsənli ilə bir neçə gün əvvəl cüdo üzrə 15 yaşa qədər kiçikyaşlı yeniyetmələr arasında Hövsan qəsəbəsində keçirilən Bakı Şəhər birinciliyində tanış olduq. Azərbaycan Cüdo Federasiyası və Bakı Şəhər Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə keçirilən yarışda 14 yaşlı Ayxan 73 kq çəki dərəcəsində bütün rəqiblərinə qalib gələrək qızıl medal qazandı.**




Söhbət zamanı məlum oldu ki, Ayxan Bakı şəhəri 167 nömrəli orta məktəbin 8-ci sinfində təhsil alır. O, dərslərində də qabaqcıldır, sinfin yaxşı oxuyanları sırasındadır. Eyni zamanda peşəkar idman artıq onun həyatının ayrılmaz hissəsinə çevrilib. Düzdür, idmançı karyerası hələlik qısadır. Cəmi 2 ildir ki, Turan İdman Klubunda Əhməd Məmmədovun məşqçiliyi ilə cüdo ilə məşğul olur. Amma bu az müddətdə neçə-neçə qələbəyə, idmançıların həsəd aparacağı nəticələrə imza atıb.

Ötən ay "Təhsil" Respublika İdman Mərkəzinin keçirdiyi Respublika birinciliyində Ayxan 73 kq çəki üzrə respublika çempionu olub. Ötən ilin noyabr ayında Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş Respublika açıq turnirində qızıl medal qazanıb. Həmçinin ötən ilin mart ayında Bayraqdar İdman Klubunun keçirdiyi beynəlxalq turnirdə fəxri kürsünün birinci pilləsinə yüksəlib.

Ayxan ölkəmiqyaslı çox yarışın qalibidir. Elə buna görə də bir müddət əvvəl cüdo üzrə yeniyetmələrdən ibarət milli yığma komandaya dəvət alıb. Hazırda həm də Nicat Şıxəlizadənin məşqçiliyi ilə milli yığma komandasında təmsil olunur.

Əlbəttə ki, hər bir idmançının ən böyük arzusu mötəbər beynəlxalq yarışların qalibi olmaqdır. Bu mənada indiyə kimi ölkəmiqyaslı turnirlərdə dəfələrlə çempionluğun sevincini yaşayan Ayxanın da ən böyük arzusu və məqsədi dünya və Avropa çempionatlarında qızıl medal qazanaraq üçrəngli bayrağımızı ucaltmaq, himnimizi səsləndirməkdir.

Özü buna əmindir. Məşqçiləri də inanırlar ki, olduqca perspektivli cüdoçu olan Ayxan Həsənli tezliklə ən mötəbər beynəlxalq yarışların qalibi olacaq.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Fransada daha bir yeniyetmə müsəlman qətlə yetirilib

## İslamofobiyanın getdikcə güclənməsi insanlara real təhlükə yaradır

**Fransada islamofobiyanın getdikcə güclənməsi fonunda müsəlmanlara qarşı törədilən cinayətlər ara vermir.**




Belə ki, Viri-Şatilyonda oxuduğu liseydən çıxarkən bir qrup gəncin vəhşicəsinə hücumuna məruz qalan 15 yaşlı Şəmsəddin Paris yaxınlığında yerləşən Evri qəsəbəsində dünyasını dəyişib. Bu barədə yerli prokurorluq məlumat yayıb. Hadisə ilə əlaqədar araşdırma başlansa da, hücumun motivi açıqlanmayıb.

Les Sablons İnstitutunda təhsil alan uşaq musiqi dərsindən evə qayıdarkən üzləri xüsusi maskalarla örtülmüş 3 və ya 4 nəfərdən ibarət qrup tərəfindən hücuma məruz qalıb.

Viri-Şatilyon şəhərinin meri Jan-Mari Vilanın sözlərinə görə, "Şəmsəddinə iki pilləkən arasında 3 və ya 4 nəfər hücum edib və onu döyərək öldürüblər".

Prefekt müavini Frederik Kamilleri BFM TV-yə bildirib ki, motiv barədə nəsə demək mümkün deyil. Şahidlər və rayon sakinləri dindirilir.

AFP agentliyinin verdiyi son məlumata görə, faciəvi hadisə ilə bağlı beş şübhəli şəxs saxlanılıb: üç 17 yaşlı yeniyetmə, 15 yaşlı qız və 20 yaşlı gənc.

Prokuror Qreqyar Dülen bildirib ki, bu faciəvi hadisə ilə bağlı qətl maddəsilə cinayət işi açılıb.

### Fransada 3 gün ərzində iki məktəbli müsəlmana hücum edilib

Viri-Şatilyonda baş verən hadisə Fransada üç gün ərzində məktəbliyə digər yeniyetmələr tərəfindən edilən ikinci hücumdur. Belə ki, aprelin 2-də ölkənin cənubundakı Monpelye şəhəri yaxınlığında yerləşən La-Moson-La-Payyad rayonundakı Artur Rembo kollecinin həyətində 14 yaşlı Samara adlı müsəlman qız vəhşicəsinə döyülüb. Hücumdan sonra o, komaya düşüb.

Samara hazırda komadan çıxıb, lakin həkimlər onun xəsarətlərini ağır kimi qiymətləndirirlər.

Bu hücumla bağlı üç şübhəli şəxs saxlanılıb: Samara ilə eyni məktəbdə təhsil alan 14 yaşlı şagird, həmçinin digər məktəblərdə oxuyan 14 və 15 yaşlı oğlanlar.

Aprelin 5-i axşam saatlarında hər üç şəxs adam öldürməyə cəhddə şübhəli bilinib və barələrində istintaq başladılıb. İndi yeniyetmələr "ədalətin nəzarəti altındadır".

Zərərçəkmiş qızın anası Haşimə yerli mediaya müsahibəsində övladının son 3,5 il ərzində məktəbdə mobbinqə məruz qaldığını bildirib.

Qeyd edək ki, ölkədə islamofobiyanın getdikcə güclənməsi, müsəlmanlara qarşı təzyiqlərin artması insanlara real təhlükə yaradır. Fransada yaşayan müsəlmanlar arasında keçirilən son rəy sorğusunda iştirak edənlərin 74 faizi çalışdıqları iş yerlərində, ictimai yerlərdə, nəqliyyatda, təhsil müəssisələrində və başqa yerlərdə müsəlman olduqları üçün müəyyən çətinliklərlə üzləşdiklərini bildiriblər.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Azərbaycan və Gürcüstan qolf idman növü üzrə əməkdaşlığa başlayır

**Azərbaycan və Gürcüstan Qolf federasiyaları arasında anlaşma memorandumu imzalanıb. Qurumdan AZƏRTAC-a verilən məlumata görə, imzalanma mərasimi hər iki federasiya prezidentinin iştirakı ilə baş tutub.**



Qolf sahəsində əməkdaşlığın və irəliləyişin təşviqinə yönəlmiş memorandumun əsas məqsədi idmanın müxtəlif istiqamətləri üzrə təcrübə və bilik mübadiləsini asanlaşdırmaqdır.

Əməkdaşlığın perspektivləri ilə bağlı danışan Azərbaycan Qolf Federasiyasının prezidenti Rauf Xəlilov bunun ölkəmizdə sözügedən idman növünü inkişaf etdirmək üçün irəliyə doğru atılmış mühüm addım olduğunu söyləyib.

Gürcüstan Qolf Federasiyasının prezidenti Zaza Mikadze qarşılıqlı hörmət ruhunu inkişaf etdirərək, regionda bu idmanın standartlarını yüksəltməyi qarşıya məqsəd qoyduqlarını vurğulayıb. Qeyd edək ki, imzalanma mərasimində Azərbaycan Qolf Federasiyasının vitse-prezidenti Anar Əzimov, baş katib Leyla Abbasova, Gürcüstan Qolf Federasiyasının vitse-prezidenti Andro Şilakadze və baş katibi Mişa Dzadzamia da iştirak ediblər.

# *ICESCO:* "İdman inkişafın və sülhün təşviqində ən yaxşı vasitələrdən biridir"

Hər il aprelin 6-da dünya ictimaiyyəti İnkişaf və Sülh Naminə Beynəlxalq İdman Gününü qeyd edir. Cari ildə qlobal miqyasda icmalar arasında birgəyaşayış dəyərlərinin möhkəmləndirilməsində idman və fiziki fəaliyyətin roluna işıq salmaq məqsədilə bu əlamətdar gün "Sülhsevər və inklüziv cəmiyyətlərin təşviqi üçün idman" devizi altında qeyd olunur. AZƏRTAC İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) rəsmi saytına istinadla xəbər verir ki, təşkilat idmanın rolunun artırılmasına sadiqliyini bir daha bəyan edib.

ICESCO-nun müraciətində deyilir: "İdmanı sosial inteqrasiya, inkişaf, birgəyaşayış və sülh dəyərlərinin möhkəmlənməsində katalizator qismində görən təşkilatımız həmçinin böhranlara tab gətirə bilən inklüziv icmaların qurulması üçün beynəlxalq ictimaiyyəti idmandan istifadə etmək istiqamətində səyləri birləşdirməyə çağırır".

Müraciətdə vurğulanır ki, dialoqun, yaradıcılığın və beynəlxalq əməkdaşlığın təşviqində idmanın təsirli rolunu dərk edən ICESCO həmçinin İctimai Dəyişiklik üçün İdman adlı təşəbbüsü, İdman Diplomatiyası Proqramını və İdmanda Beynəlxalq Gənclər Könüllüləri Proqramını həyata keçirməyə başlayıb.

Təşkilat diqqətə çatdırıb ki, Rabatda keçirilən ICESCO marafonunun son iki buraxılışında xüsusi ehtiyacı olan insanlar da daxil olmaqla, hər yaşdan olan mindən çox iştirakçı islam dünyasında fiziki və ruhi sağlamlığı yaxşılaşdırmaq, firavanlığa nail olmaq məqsədilə idmana sərmayə qoymağın əhəmiyyətini vurğulayıb.


BAŞ REDAKTOR

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 4246**
**Sifariş 707**

**Qiyməti 60 qəpik**